HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 09 (800) ▪ 2 mart 2016

www.vergiler.az

Qiyməti: 55 qəp.



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

# Prezident İlham Əliyev: "Azərbaycan enerji şaxələndirilməsində, enerji təhlükəsizliyində mühüm rol oynayır"




Fevralın 29-da Bakıda «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısı keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda iştirak edib. İclasda, həmçinin, «Cənub» qaz dəhlizinin iştirakçısı olan ölkələrin energetika nazirləri və müxtəlif qurumların təmsilçiləri, o cümlədən Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviç, Türkiyənin energetika və təbii sərvətlər naziri Berat Albayrak, ABŞ Dövlət Departamentinin enerji ehtiyatları bürosunun xüsusi nümayəndəsi və əlaqələndiricisi Amos Hokşteyn, Böyük Britaniyanın enerji və iqlim dəyişikliyi departamentinin beynəlxalq enerji məsələləri şöbəsinin baş direktoru Edmund Hosker, İtaliya Nazirlər Şurasının dövlət katibi Klaudio De Vinçenti və digər şəxslər iştirak ediblər.

Toplantıda çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu görüşün böyük əhəmiyyətə malik olduğunu bildirib: «Biz ötən il görülmüş işləri nəzərdən keçirəcəyik və 2016-cı il üçün proqramımızı planlaşdıracağıq. Bakıda bir il əvvəl keçirilmiş «Cənub Qaz Dəhlizi» layihəsi Məşvərət Şurasının birinci toplantısı bütün layihə üzvləri arasında əlaqələndirməni yaratmaq məqsədilə göstərilmiş səylərin təzahürü idi. Həmin səylər böyük uğurla nəticələndi. Bir il ərzində ikitərəfli və çoxtərəfli formatda çoxsaylı görüşlərimiz olub. Bu gün aparılan əlaqələndirmənin və əməkdaşlığın səviyyəsi bizim düzgün yolda olduğumuzu nümayiş etdirir. 2015-ci ildə əldə edilmiş mühüm nailiyyətlərdən biri təməlqoyma mərasimi və TANAP layihəsinin həyata keçirilməsinin başlanması oldu. Ötən il Türkiyənin Qars vilayətində Türkiyə, Gürcüstan və Azərbaycan prezidentlərinin iştirakı ilə TANAP-ın təməlqoyma mərasimi keçirildi. Hər şey cədvələ uyğun gedir. Biz düzgün istiqamətdəyik».

Dövlətimizin başçısı bildirib ki, «Cənub Qaz Dəhlizi» layihəsi Avropanın genişmiqyaslı infrastruktur və enerji layihəsidir. Azərbaycanın nəhəng qaz ehtiyatları, xüsusən də «Şahdəniz» yatağı hazırda «Cənub» qaz dəhlizi üçün yeganə resurs mənbəyidir. Həmin yataq dünyada ən iri qaz yataqlarından biridir: «Ümidvaram ki, təchizatın digər mənbələri də olacaq. Biz böyük həcmdə təbii qazı nəql edəcək boru kəmərini çəkirik. Zənnimcə, gələcək planlar və nailiyyətlər aramızda qarşılıqlı etimadın səviyyəsindən asılı olacaq. Hesab edirəm ki, bu gün bizim artıq olduqca möhkəm əməkdaşlıq formatımız var. Fikrimcə, biz burada «Cənub Qaz Dəhlizi» layihəsi çərçivəsində hasilatçılar, tranzit ölkələr və eyni zamanda, istehlakçılar arasında maraqların çox yaxşı tarazlığına malikik. Həmçinin hesab edirəm, gələn iki-üç il ərzində planlarımızın uğurla həyata keçirilməsi göstərəcək ki, bu layihənin gələcək üçün çox yaxşı potensialı var».

Prezident İlham Əliyev bildirib ki, enerji amili heç zaman siyasi təşəbbüs və ya siyasi tələb vasitəsi olmalı deyil. Biz enerji əməkdaşlığını siyasi formatdan ayırmalıyıq. Yalnız bu halda uğur qazanmaq mümkündür. Dövlətimizin başçısı qeyd edib ki, 2016-cı il bu baxımdan mühüm il olacaq: «Hesab edirəm ki, biz güclü tərəfdaşlıq və əməkdaşlıqla bu məqsədlərə nail olacağıq. TANAP layihəsinin həyata keçirilməsi hazırda olduqca fəal mərhələdədir. Əminəm ki, o, vaxtında, hətta cədvəldən əvvəl icra ediləcək. Əlbəttə, istərdim ki, eyni yanaşma Trans-Adriatik layihəsinin həyata keçirilməsində də olsun. Ümid edirəm ki, bu il tikinti işləri başlayacaq və hasilatçılarla əlaqələndirmə sayəsində «Cənub» qaz boru kəmərinin çəkilməsində məqsədlərimizə nail olacağıq. Biz XXI əsrin tarixi layihəsini - «Cənub» qaz dəhlizini vaxtında və bütün iştirakçılar üçün maksimal fayda ilə icra edəcəyik».

Tədbirdə çıxış edən Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviç bildirib ki, Xəzər dənizinin karbohidrogen ehtiyatlarının Avropa bazarına çıxışı uzun illər müzakirə mövzusu olub. Lakin biz heç vaxt buna indiki qədər yaxın olmamışıq. Müqavilə üzrə Azərbaycan, Gürcüstan və Türkiyədə davam edən tikinti işlərinə 10 milyard dollar vəsaitin ayrılması faktı əlamətdar bir hadisədir. Bu, olduqca güclü irəliləyişdir: «Biz şaxələndirmə vasitəsilə enerji və təchizat təhlükəsizliyinin təkmilləşdirilməsinə nail olmaq istədik. Buna görə də biz «Cənub» qaz dəhlizini Avropanın öz enerji ehtiyatlarını necə şaxələndirilməsinin bariz nümunəsi kimi görürük. Söhbət yeni ünvandan gələn yeni təchizatçı, yeni marşrut, yeni qazdan gedir. Bu, Avropanın enerji təhlükəsizliyinə həqiqətən yeni elementlər gətirir və bu da Avropa İttifaqına üzv ölkələr üçün çox vacibdir».

Tədbirdə Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayrak, ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi Amos Hokstayn, Böyük Britaniyanın Enerji və İqlim Dəyişikliyi Nazirliyinin beynəlxalq enerji departamentinin baş direktoru Edmund Hosker, BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qordon Birrell, Trans-Anadolu qaz kəməri layihəsinin baş meneceri Saltuk Düzyol çıxış edərək, layihənin əhəmiyyətindən danışıblar.

Toplantıya yekun vuran dövlətimizin başçısı bildirib ki, Məşvərət Şurası formatının yaradılmasının əsas məqsədi əlaqələndirmə ilə bağlı idi. Çünki hazırda hamımız bir komandayıq: Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya. Çox şadam ki, Xorvatiya və Monteneqro nümayəndələri bugünkü görüşdə iştirak edirlər. Bu, onu göstərir ki, «Cənub» qaz dəhlizi daha da genişlənəcək».

Sonra «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısının Birgə Bəyannaməsi imzalanıb. Bəyannaməni «Cənub Qaz Dəhlizi» layihəsinin iştirakçısı olan ölkələrin nazirləri və xüsusi nümayəndələri imzalayıblar.

## Əməkdaşlığın yeni inkişaf səviyyəsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də Avropa Şurası Parlament Assambleyasının prezidenti Pedro Aqramuntu qəbul edib. Qurumun prezidenti seçilməsi münasibətilə P.Aqramuntu təbrik edən dövlətimizin başçısı onun yeni vəzifəyə seçildikdən az müddət sonra Azərbaycana səfər etməsini əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirib. Təşkilatla tamhüquqlu əməkdaşlığımızın 15 illik bir tarixi əhatə etdiyini vurğulayan Prezident İlham Əliyev Azərbaycanın Avropa Şurası Parlament Assambleyasının üzvü kimi müsbət inkişaf proseslərinə öz töhfəsini verməkdə davam etdiyini bildirib. Dövlətimizin başçısı tərəfdaşlığımızın bundan sonra yeni inkişaf səviyyəsinə doğru irəliləyəcəyinə də əminliyini ifadə edib.

Bakıya səfərindən məmnunluğunu ifadə edən Avropa Şurası Parlament Assambleyasının prezidenti bu vəzifəyə seçildikdən sonra ilk xarici səfərlərindən birini Azərbaycana etdiyini vurğulayaraq, ölkəmizin onun üçün xüsusi əhəmiyyət daşıdığını bildirib. Hazırda bütün dünyanın, xüsusilə Avropanın müxtəlif çağırışlarla üzləşdiyini deyən Pedro Aqramunt belə bir dövrdə qarşılıqlı maraq doğuran məsələlərin müzakirə olunmasının önəmini qeyd edib və Azərbaycanın bəzi məsələlərin həlli baxımından mühüm ölkə olduğunu vurğulayıb.

Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əlaqələrin qarşılıqlı inam və hörmət prinsipləri əsasında daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirilib, əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## İkitərəfli əlaqələr genişləndirilir

Prezident İlham Əliyev martın 1-də Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Rəşad Mahmudun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Rəşad Mahmud iki dövlət arasında siyasi, mədəni və dini əlaqələrin qədim tarixə malik olduğunu vurğulayıb, ölkələrimizin ən çətin vaxtlarda həmişə bir-birinin yanında olduğunu bildirib.

Prezident İlham Əliyev Azərbaycan ilə Pakistanın daim bir-birini dəstəklədiyini qeyd edib və bu səfərin ikitərəfli əlaqələrimizin genişləndirilməsi istiqamətində əlavə tədbirlərin görülməsi baxımından uğurlu olacağına əminliyini ifadə edib.

## Xocalı faciəsinin qurbanları yad olunub

Fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Xocalı soyqırımının 24-cü ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə gəliblər. Dövlətimizin başçısı abidənin önünə əklil qoyub, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirib. Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak ediblər. Anma mərasiminin iştirakçıları abidənin önünə tər güllər düzüblər.

# Avropa İttifaqı-Azərbaycan əməkdaşlığı hər iki tərəfin marağına xidmət edir



Fevralın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Avropa İttifaqının xarici məsələlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti xanım Federika Moqerini arasında geniş tərkibdə görüş olub. Dövlətimizin başçısı Federika Moqerininin ölkəmizə səfərinin Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın vacib məsələlərini nəzərdən keçirmək üçün yaxşı fürsət yaratdığını bildirib və onun «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin Bakıda keçirilən ikinci toplantısının bağlanış mərasimində iştirakına görə minnətdarlığını bildirib.

Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin vacib mərhələdə olduğunu vurğulayan dövlətimizin başçısı əməkdaşlığımızın gələcək planlarının müəyyənləşdirilməsinin önəmini qeyd edib. Ötən il Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun ölkəmizə səfərinin əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev bu yaxınlarda Münxendə Avropa Komissiyasının qonşuluq siyasəti və genişləndirmə məsələləri üzrə komissarı Yohannes Hanla əməkdaşlığımızın gələcək planları ilə bağlı apardığı müzakirələrin önəmini qeyd edib. Dövlətimizin başçısı Azərbaycan ilə Avropa İttifaqı arasında uzunmüddətli və müxtəlif sahələri əhatə edəcək səmərəli tərəfdaşlıq əlaqələrinin qurulması üçün əməkdaşlıq formatının işlənib hazırlanacağına ümidvar olduğunu bildirib.

«Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının toplantısının yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirən xanım Federika Moqerini bunu Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirib. O, təmsil etdiyi qurum ilə Azərbaycan arasında əməkdaşlığın yeni çərçivədə davam etdiriləcəyini vurğulayaraq, bunun üçün möhkəm bazanın mövcud olduğunu qeyd edib. Ölkəmizin mürəkkəb regionda yerləşdiyini deyən qonaq Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlığı hər iki tərəfin maraqlarını təmin edəcək strateji səviyyəyə qaldırmağın vacibliyini vurğulayıb.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri geniş müzakirə edilib, bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## BU NÖMRƏMİZDƏ

Vergilər naziri Oğuzda vətəndaşları qəbul edib 2

İş yerlərinin rəsmiləşdirilməsi vergitutma bazasının genişləndirilməsinə şərait yaradır 3

Manata inamı artırmaq üçün daha bir təklif 4

Sahibkarlığa dəstək layihələri davam etdirilir 5

# Vergilər naziri Oğuzda vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdığı problemlərin həllinə köməklik göstərirlər. Növbəti belə qəbul fevral ayının 25-də Oğuz şəhərində keçirilib, vergilər naziri Fazil Məmmədov Oğuz, Şəki və Qəbələ rayonlarından olan vətəndaşlarla görüşüb.

Qəbulda Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər, vergilərin hesablanması, ödənilməsi, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gələnən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətlərinə baxılıb.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunub, müraciətlərin bir qismi nəzarətə götürülüb, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan məmnunluqlarını ifadə ediblər.

# Fərdi vergi təqvimi

Ötən il Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin vergi ödəyicilərinin istifadəsinə verdiyi «Fərdi vergi təqvimi»nin əsas məqsədi elektron xidmətlərdən istifadə edən vergi ödəyicilərinin vergi öhdəlikləri barədə əlavə resurs sərf edilmədən məlumatlandırılması, qanunvericiliyin tələblərini bilməməsi səbəbindən ödəyicilərin cərimələnməsi hallarının minimumlaşdırılması, ümumilikdə vətəndaş məmnunluğunun artırılmasıdır.

Portuqaliya vergi administrasiyasının təcrübəsi nəzərə alınaraq yaradılmış «Fərdi vergi təqvimi» hər bir vergi ödəyicisinin qarşıdakı 30 gün ərzində yerinə yetirməli olduğu cari öhdəliklərini, icra vaxtı keçmiş, lakin hələ də icra olunmamış öhdəliklərini və digər məlumatları özündə əks etdirən fərdi, özünəxidmət vasitəsidir. «Növbəti 30 gün ərzində yerinə yetirilməli cari öhdəliklər» dedikdə, bunlar nəzərdə tutulur:

- vergi ödəyicilərinin hesabatlarının vergi orqanına təqdim edilmə müddətinin son tarixi;
- vergi öhdəliklərinin ödənilməsinin son tarixi, fəaliyyəti müvəqqəti dayandırılmış vergi ödəyicisinin fəaliyyətinin aktivləşməsi tarixi;
- vergi məsuliyyətinə cəlbetmə qərarı nəticəsində vergi ödəyicisinin ödəməli olduğu məbləğin son ödəmə tarixi;
- kameral vergi yoxlaması zamanı vergi orqanı tərəfindən vergi ödəyicisinə göndərilən məktubların cavablandırılması üçün müəyyən edilmiş müddətin son tarixi;
- mənfəət (gəlir) vergisi üzrə cari vergi ödəmələri barədə arayışın vergi orqanına təqdim edilməsinin son tarixi;
- mənfəət, gəlir və əmlak vergisi üzrə cari vergi ödəmələrinin son tarixi;
- növbəti səyyar vergi yoxlamasının başlanma tarixi;
- vergi ödəyicilərinin əlavə dəyər vergisinin məqsədləri üçün məcburi qeydiyyata dair ərizə təqdim etmə öhdəliyinin son tarixi.

İcra vaxtı keçmiş, lakin icra edilməmiş öhdəliklərə isə bunlar barədə məlumatlar daxildir:

- təqdim edilməmiş bəyannamələr;
- ödənilməmiş vergi borcları;
- vergi ödəyicisinin əlavə dəyər vergisinin məqsədləri üçün məcburi qeydiyyata dair ərizə təqdim etmə öhdəliyi olduğu halda, təqdim edilməmiş ərizə.

Sənədlərin hazır olması barədə məlumatlara bunlar barədə arayışlar aiddir:

- təsərrüfat subyektinin qeydiyyata alınması;
- vergi borcu;
- vergi ödəyicisinin mükəlləfiyyəti;
- vergi ödəyicisinin dövriyyəsi;
- vergi ödəyicisinin fəaliyyəti;
- rezidentlik (DTA-01).

Buraya xidmət mərkəzlərində qəbul edilmiş digər sənədlər də daxildir.

Beləliklə, «Fərdi vergi təqvimi»nin texniki tapşırığına əsasən, İnternet Vergi İdarəsinin «Onlayn kargüzarlıq və e-VHF» bölməsinə daxil olan vergi ödəyicisi yuxarıda qeyd edilən hallar üzrə ekrana gələn mesajlar vasitəsilə məlumatlanmış olur. Bununla bərabər, vergi ödəyicisinin yerinə yetirməli bir neçə öhdəliyi olduqda, təqvimdə bu öhdəliklərin hər biri ayrı-ayrılıqda görünür və öhdəliklərin icrası üçün qalan günlər azaldıqca, onlar ekrana daha nəzərəçarpan formada gəlir.

Göstərilənlərdən əlavə, Çağrı Mərkəzinə və xidmət mərkəzlərinə müraciət edən vergi ödəyicilərinin daha ətraflı və operativ məlumatlandırılması məqsədilə «Fərdi vergi təqvimi»ndən vergi orqanının əməkdaşlarının da istifadə etmələrinə imkan yaradılıb.

**AYTƏN**

# Əməkdaşların peşə hazırlığı gücləndirilir

Vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması məqsədilə vergi orqanları əməkdaşlarına müntəzəm qaydada müxtəlif mövzularda təlim və tədris kursları təşkil edilir.

Yerli vergi orqanlarınının vergi ödəyicilərinə xidmət strukturlarına yeni təyin olunmuş büdcədənkənar fond hesabına saxlanılan müfəttişləri də bu prosesdən kənarda qalmırlar. Onların təmsilçi kimi xidmət mərkəzlərinə və xidmət kanalları üzrə vergi ödəyicilərinin məlumatlandırılmasına cəlb olunması üçün Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsi tərəfindən ilkin nəzəri və praktiki bilikləri əhatə edən beş günlük iki tədris kursu təşkil edilmişdir. Bu kurslara ilkin mərhələdə vergi ödəyicilərinə xidmət strukturlarının 40 əməkdaşı cəlb olunmuşdur. Təlimin sonunda dinləyicilərin peşə biliklərinin sınaq qiymətləndirilməsinin keçirilməsi nəzərdə tutulur.

# İcarə haqqının vergiyə cəlb olunması

**HÜQUQİ ŞƏXSİN-MƏNFƏƏT VERGİSİ ÖDƏYİCİSİNİN HƏR HANSI OBYEKTİ VÖEN-İ OLAN FİZİKİ ŞƏXSƏ İCARƏYƏ VERDİYİ ZAMAN AYLIQ İCARƏ HAQQINDAN VERGİ TUTULMASI SUALI ÇOXLARINI MARAQLANDIRIR**

Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Vergi siyasəti idarəsinin Vergi qanunvericiliyinin tətbiqi şöbəsinin rəisi Əvəz Quliyev mövzunu şərh edərkən bildirdi ki, Mülki Məcəllənin 700-cü maddəsinə əsasən, icarə müqaviləsi əmlak kirayəsi müqaviləsidir. Bu müqaviləyə görə, kirayəyə verən (icarəyə verən) kirayəçiyə (icarəçiyə) icarəyə götürdüyü obyektdən və ya hüquqdan istifadə ilə yanaşı, bəhərdən istifadə etmək və gəlir götürmək hüququ da verir. İcarəçi icarəyə verənə müəyyənləşdirilmiş icarə haqqı ödəməyə borcludur.

Vergi Məcəlləsinin 150.1.6-cı maddəsinə əsasən, daşınan və daşınmaz əmlak üçün fiziki şəxslərə icarə haqqı ödəyən şəxslər həmin fiziki şəxslərin bu gəlirlərindən ödəmə mənbəyində Vergi Məcəlləsinin 124-cü maddəsinə uyğun olaraq 14 faiz dərəcə ilə gəlir vergisini tutmalı və tutulmuş vergini gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli, bu müddətdə müvafiq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

Vergi Məcəlləsinin 124.1-ci maddəsinin 2-ci abzasına əsasən, icarə haqqı vergi ödəyicisi kimi uçotda olmayan fiziki şəxs tərəfindən ödənildikdə, icarəyə verən bu maddəyə uyğun olaraq 14 faiz dərəcə ilə vergini özü ödəyir və Məcəllənin 33-cü və 149-cu maddələrinə uyğun olaraq vergi uçotuna alınıb bəyannamə verir. Həmçinin, Vergi Məcəlləsinin 124.2-ci maddəsində qeyd edilmişdir ki, icarə haqqı və royaltidən gəlir əldə edən fiziki şəxslərdən Vergi Məcəlləsinin 124.1-ci maddəsinə uyğun olaraq vergi tutulmuşdursa və ya onun tərəfindən ödənilmişdirsə, həmin gəlirlərdən bir daha vergi tutulmur. Məcəlləyə görə, rezident müəssisələrə və ya qeyri-rezidentlərin daimi nümayəndəliklərinə Azərbaycan Respublikasında ödənilmiş məbləğlər yuxarıda qeyd olunan maddə üzrə vergitutma obyekti deyildir.

Vergi Məcəlləsinin 72-ci maddəsinə əsasən, vergi ödəyiciləri tərəfindən vergi hesabatları müəyyənləşdirilmiş müddətlərdə Vergilər Nazirliyi tərəfindən təsdiq olunmuş formada və yerdə vergi orqanına təqdim edilməlidir. Vergilər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş «Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi» formasında hüquqi şəxslərə ödənilən icarə haqqının məbləğlərinin əks etdirilməsi nəzərdə tutulmuşdur.

Ə.Quliyev onu da qeyd etdi ki, göstərilənlərə əsasən, vergi orqanında qeydiyyatda olan fiziki şəxs tərəfindən təsərrüfat subyekti hüquqi şəxslərdən icarəyə götürüldükdə, həmin hüquqi şəxslərə ödənilən icarə haqqından Vergi Məcəlləsinin 124.3-cü maddəsinə uyğun olaraq ödəmə mənbəyində verginin tutulmamasına baxmayaraq, bu ödəmələr barədə məlumatları əks etdirən (1606.1.1-ci sətirdə) «Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi» hesabatı vergi orqanına təqdim edilməlidir. Hüquqi şəxslərə ödənilən icarə haqqından ödəmə mənbəyində verginin tutulmaması nəzərə alınaraq, sözügedən bəyannamənin 1606.1.1-ci sətrinin «Gəlirin məbləği» sütununda ödənilən icarə haqqının tam məbləği göstərilməli, «Verginin məbləği» sütununda isə rəqəm göstərilməməlidir.

Vergi Məcəlləsinin 218.2-ci, 124.3-cü və 104.1-ci maddələrinin müddəaları nəzərə alınmaqla isə əmlakın icarəyə verilməsindən gəlir əldə edən hüquqi şəxslərin sadələşdirilmiş vergitutma sistemini tətbiq etmək hüququ olmadığına və onların bu gəlirindən ödəmə mənbəyində vergi tutulmadığına görə, həmin hüquqi şəxslər hesabat ili ərzində əmlakın icarəyə verilməsindən əldə etdiyi gəlirdən Vergi Məcəlləsinin X fəslinə uyğun olaraq gəlirin əldə edilməsi ilə bağlı çəkdiyi xərclərin fərqindən 20 faiz dərəcə ilə mənfəət vergisi hesablamalı, hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına «Mənfəət vergisinin bəyannaməsi»ni təqdim etməli və hesablanmış mənfəət vergisini həmin müddətədək dövlət büdcəsinə ödəməlidir.

Xatırladaq ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə uyğun olaraq, Vergi Məcəlləsinin 124.4-cü maddəsinə əsasən, Azərbaycan Respublikasında daşınmaz əmlakın (yaşayış fondu istisna olmaqla) vergitutma məqsədləri üçün aylıq icarə haqqının məbləği bu Məcəllənin 14-cü maddəsinə uyğun olaraq, bazar qiyməti nəzərə alınmaqla müəyyən edilir.

*Vergilər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş «Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi» formasında hüquqi şəxslərə ödənilən icarə haqqının məbləğlərinin əks etdirilməsi nəzərdə tutulmuşdur*

**Fəxriyyə İKRAMQIZI**

# Azərbaycanın biznes mühiti yüksək qiymətləndirilib

Yaponiyanın paytaxtı Tokyonun ticarət və əyləncə mərkəzi kimi tanınan Şibuyada yapon iş adamlarını özündə birləşdirən «Kaonaga Club»ın növbəti tədbiri keçirilib. Yüzdən çox iş adamının qatıldığı tədbirdə yapon biznesi üçün maraq kəsb edən ölkələr, o cümlədən Cənubi Qafqaz regionunun lider dövlətinə çevrilmiş Azərbaycan haqqında da söhbət açılıb.

Tədbiri giriş sözü ilə açan «Kaonaga Club»ın prezidenti Yoşinobu Kanayama yapon biznesi üçün maraqlı olan ölkələr - Azərbaycan, Birləşmiş Ərəb Əmirlikləri, İslandiya, Sudan və Filippin haqqında məlumat verib. O, dünyanı bürüyən iqtisadi böhran dövründə yapon kiçik və orta biznesinin inkişafında məhz bu ölkələrin, xüsusilə Azərbaycanın mühüm rol oynaya biləcəyini qeyd edib.

Tanınmış iqtisadçı-ekspert, «Cross Border Club»ın prezidenti Kazuyasu İşida son üç ildə Azərbaycana 12 dəfə səfər etdiyini və özü ilə birlikdə təxminən 350 yapon iş adamını ölkəmizə apardığını bildirib. Qeyd edilib ki, artıq bir neçə sahədə Azərbaycanla uğurlu və davamlı biznes əlaqələri qurulmaqdadır: «Azərbaycanın biznes həyatının perspektivləri çox parlaqdır».

Tədbirdə Hokkaydo Universitetinin doktorantı Əlibəy Məmmədov ölkəmizdəki biznes mühiti barədə ətraflı məlumat verib. Bildirilib ki, Azərbaycan coğrafi cəhətdən əlverişli mövqedə yerləşdiyi üçün dünyanın güc mərkəzləri, böyük dövlətləri bu regionda yeni layihələr həyata keçirərkən ölkəmizlə hesablaşırlar. Azərbaycan Cənubi Qafqaz regionunun lider dövlətinə çevrilməklə yanaşı, eyni zamanda, beynəlxalq enerji təhlükəsizliyinə öz töhfəsini verməkdədir. Respublikamızda biznes mühitinin kifayət qədər əlverişli olduğu, Yaponiyanın keyfiyyətli məhsullarının ölkəmizdə yüksək qiymətləndirildiyi xüsusi qeyd olunub.



# İş yerlərinin rəsmiləşdirilməsi vergitutma bazasının genişləndirilməsinə şərait yaradır

**İşə qəbul zamanı əmək müqaviləsinin bağlanmaması və gizli razılaşmalar, nəticə etibarilə, gəlir vergisinin və sosial ödənişlərin yerinə yetirilməməsi ilə yanaşı, vətəndaşların hüquqlarının da kobud şəkildə pozulmasına səbəb olur.**

Dövlət başçısının «Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında» fərmanında Vergilər Nazirliyinə əmək müqaviləsi bağlanılmadan fiziki şəxslərin işə cəlb edilməsinə nəzarəti gücləndirmək tapşırığı verilmişdir. Ölkə rəhbərliyi tərəfindən verilən tapşırıqların icrası, vergidən yayınma hallarının, əlavə vergi potensialının müəyyən edilməsi, işçi sayının və iş yerlərinin düzgün rəsmiləşdirilməsinin təmin olunması məqsədilə vergilər nazirinin əmri ilə «İşəgötürənlər tərəfindən iş yerlərinin rəsmiləşdirilməməsi hallarının qarşısının alınması istiqamətində görüləcək işlərə dair» Tədbirlər Planı təsdiq edilmişdir. Plan çərçivəsində nəzarət tədbirləri ilə yanaşı, maarifləndirmə və məlumatlandırma işlərinə də ciddi əhəmiyyət verilir.

Qeyd edək ki, nazirlikdə «Vergi ödəyicilərinə göstərilən xidmətlər - məlumatlandırma, maarifləndirmə və təbliğat işində sahibkarların ictimai təşkilatlarının və KİV-in rolunun artırılması» adlı layihə hazırlanmış, layihə çərçivəsində sahibkarların ictimai təşkilatları və KİV nümayəndələrinin iştirakı ilə müxtəlif tədbirlər keçirilmişdir. Vergi ödəyicilərinin istənilən vaxt, istənilən yerdən, istənilən növ informasiyaya çıxışını təmin etmək üçün Vergilər Nazirliyi mövcud məlumat mənbələrindən - «195» Çağrı Mərkəzindən, taxes.gov.az veb saytından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən, «Vergi dostları» şəbəkəsindən, sosial mediadan fəal istifadə edir. Böyük auditoriyaya malik «Facebook» və «Twitter» sosial şəbəkələrində, «Youtube» və video.az video hostinq səhifələrində Vergilər Nazirliyi istifadəçilər arasında böyük təbliğat işləri həyata keçirir. Bunlardan əlavə, vergi ödəyicilərinə mesaj xidməti vasitəsilə aşağıda qeyd olunan xidmətlər göstərilir:

- Vergi ödəyicilərinə məlumatların və xatırlatmaların səsli mesajla göndərilməsi;

- Vergi ödəyicilərinə məlumatların və xatırlatmaların ünvanlı şəkildə SMS ilə göndərilməsi;

- İkitərəfli SMS xidmətinin abunəçilərinə xatırlatmaların mütəmadi göndərilməsi və abunə olmadan qeydiyyatdan keçmiş vergi ödəyicilərinin SMS sorğularının SMS ilə cavablandırılması.

Vergi ödəyiciləri ilə əmək müqavilələrinin bağlanmasında mövcud olan problemlərin aradan qaldırılması üçün Azərbaycan hökuməti stimullaşdırıcı tədbirlər həyata keçirir. Bu məqsədlə bu il yanvarın 1-dən qüvvəyə minən Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə görə, əsas iş yerində aylıq gəliri 2500 manatadək və illik gəliri 30.000 manatadək olan fiziki şəxslərin gəlirlərinin müvafiq olaraq ölkə üzrə yaşayış minimumunun 1 və 12 mislinədək olan hissəsinə gəlir vergisindən vergi güzəştinin tətbiqi nəzərdə tutulur. Fiziki şəxslərin gəlir vergisi üzrə güzəştlər 500 mindən çox insanı əhatə edir və bu, əməkhaqlarının şəffaflaşmasına mühüm təsir göstərəcək. «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında müəyyən olunmuş vəzifələrdən biri də əmək bazarında baş verən dəyişikliklərə uyğun tədbirlərin görülməsidir.

Bu tədbirlər sayəsində vergi ödəyiciləri təkcə cərimələrlə, inzibati yollarla yox, daha səmərəli iqtisadi mexanizmlər tətbiq edilməklə qanuni öhdəliklərinə əməl etməyə sövq olunacaqlar. Son məqsəd əmək bazarını daha da canlandırmaq, işçilərin sosial hüquqlarını qorumaq, vergi və digər ödənişlərin həyata keçirilməsinə, bu ödənişlər hesabına dövlət büdcəsinin artımına nail olmaqdır.

**Rəşad SADIQOV**

# Vətəndaşların əmək hüquqları müdafiə olunur

Konstitusiya Məhkəməsinin Palatası 2016-cı il fevralın 17-də Xətai Rayon Məhkəməsinin müraciətinə dair qərardad qəbul edərək Əmək Məcəlləsinin 70 «ç», 72-ci və 79-cu maddələrində təsbit olunmuş normalar arasında güman edilən ziddiyyətlərə aydınlıq gətirib.

Konstitusiya Məhkəməsinin məlumatında bildirilir ki, Əmək Məcəlləsinin 70-ci maddəsinin qeyd olunan bəndinə əsasən, işçi özünün əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirmədikdə, yaxud bu Məcəllənin 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrini kobud şəkildə pozduqda əmək müqaviləsi işəgötürən tərəfindən ləğv edilə bilər.

Əmək Məcəlləsinin 72-ci maddəsi işçi tərəfindən əmək vəzifələrinin kobud şəkildə pozulması hesab edilən halları nəzərdə tutur. Həmin maddənin «ç» bəndinə görə, işçinin təqsirli hərəkətləri (hərəkətsizliyi) nəticəsində əməyin mühafizəsi qaydalarını pozaraq iş yoldaşlarının səhhətinə xəsarət yetirməsi və ya onların bu səbəbdən həlak olması əmək vəzifələrinin kobud şəkildə pozulması deməkdir.

Həmçinin, Əmək Məcəlləsinin 79-cu maddəsində əmək müqaviləsinin ləğv olunması qadağan edilən işçilər və hallar göstərilib. Həmin maddənin 1-ci hissəsinə görə, hamilə, habelə üç yaşınadək uşağı olan qadınların, üç yaşınadək uşağını təkbaşına böyüdən kişilərin, yeganə qazanc yeri işlədiyi müəssisə olub məktəb yaşınadək uşağını təkbaşına böyüdən işçilərə qarşı işəgötürən tərəfindən əmək müqaviləsinin ləğv olunması qadağan edilir.

Konstitusiya Məhkəməsinin Palatası qeyd edir ki, Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət olmaqla yanaşı, həm də sosial yönümlü ölkədir və xalqın, hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır. Konstitusiya Məhkəməsinin Palatası belə nəticəyə gəlib ki, hamilə və öhdəsində 3 yaşınadək uşağı olan qadınlarla əmək müqaviləsinə Əmək Məcəlləsinin 70-ci maddəsi ilə xitam verilməsinə qadağanın qoyulması Əmək Məcəlləsinin hər hansı bir maddəsinə zidd kimi təfsir edilə bilməz. Qurum bu güzəştli normanı müəyyən edərkən ana və uşağın sağlamlığının mühafizəsi, hüquqlarının müdafiəsi, onların maddi və sosial təminatlarının gücləndirilməsi, eləcə də bəzi kateqoriya işçilərin sağlamlığının qorunması və ailələrinin sosial müdafiəsinin möhkəmləndirilməsi mövqeyindən çıxış edib.

Əmək Məcəlləsinin müvafiq maddələrinin tələblərindən irəli gələn məsələləri əsas götürən Konstitusiya Məhkəməsinin Palatası qərara alıb ki, müraciətdə göstərilən məsələlərin həll edilməsi zamanı məhkəmələr ölkə Konstitusiyasında təsbit olunmuş və dövlət tərəfindən təmin olunan sosial yönümlü dəyərləri nəzərə almaqla müvafiq nəticə müəyyən edə bilərlər.

Konstitusiya Məhkəməsi Palatasının qərardadında əks olunan hüquqi mövqe analoji işlərin həllində digər məhkəmələr üçün də istiqamət müəyyən edə bilər.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Azərbaycanın valyuta ehtiyatları bu ilin əvvəlinə **38 mlrd. 590,8 mln.** dollar təşkil edib. Bunun **33 mlrd. 574,1 mln.** dolları Dövlət Neft Fondunun, **5 mlrd. 16,7 mln.** dolları isə Mərkəzi Bankın payına düşüb.
- «Böyük Bakının Regional İnkişaf Planı» layihəsinə uyğun olaraq, paytaxtda ərazisi **1350** hektar olmaqla, **35-40 min.** nəfər üçün Yeni Türkan qəsəbəsi inşa olunacaq.
- Azərbaycan Gürcüstana əlavə **500 mln.** kubmetr qaz satacaq.
- TANAP-ın **1335** kilometr uzunluğunda ilk hissəsinin inşasının **24%-i** yekunlaşıb.
- Azərbaycan dəmir yolu nəqliyyatı ilə 2016-cı ilin yanvar ayında **1,4 mln.** ton yük, **157,8 min** sərnişin daşınıb.
- Bu ilin yanvarında **8,8 mln.** manatlıq tikinti materialı istehsal olunub.
- Yanvarda tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin 58,9%-ni yeni tikinti, yenidənqurma və genişləndirmə, **20%-ni** əsaslı təmir, **2,8%-ni** cari təmir, **18,3%-ni** isə digər işlər təşkil edib.
- İlin ilk ayında əhaliyə göstərilən pullu xidmətlərin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə **3,6** artaraq **666,9 mln.** manat olub.
- Azərbaycanda fəaliyyət göstərən mobil operatorlar yanvar ayında **65 mln.** manata yaxın gəlir əldə ediblər.

# Qeyri-leqal məşğulluqla mübarizə vergi daxilolmalarına müsbət təsir göstərəcək

**Milli Məclisin qəbul etdiyi yeni redaksiyada «İnzibati Xətalar Məcəlləsi» layihəsi ölkə başçısı tərəfindən təsdiq edilib. Martın 1-dən qüvvəyə minəcək yeni məcəllədə mühüm istiqamətlərdən biri əmək bazarına nəzarətin gücləndirilməsi, qeyri-leqal məşğulluğa qarşı səmərəli mübarizə tədbirlərinin aparılması və işəgötürənlərlə bağlı cəzaların sərtləşdirilməsidir.**

***İşəgötürənlər üçün cəza tədbirləri sərtləşdirilib***

Yeni məcəllədə əmək qanunvericiliyinin pozulmasına görə cərimələrin hədləri də müəyyənləşib. Məcəllənin 192.1 maddəsinə əsasən, əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslər hər hansı işlərin və xidmətlərin yerinə yetirilməsinə cəlb edilərsə, işəgötürəni yüksək məbləğdə sanksiyalar gözləyir. İşəgötürən fiziki şəxs olduğu halda, cərimənin miqdarı min manatdan iki min manatadək, vəzifəli şəxslər üçünsə üç min manatdan beş min manatadək nəzərdə tutulub. İşəgötürən hüquqi şəxs olduğu halda isə bu rəqəm iyirmi min manatdan iyirmi beş min manatadək təşkil edəcək.

Milli Məclisin Sosial siyasət komitəsinin sədr müavini Musa Quliyev bildirib ki, yeni məcəllədə işəgötürənlərin məsuliyyəti ilə bağlı başqa ciddi məsələlər də öz əksini tapıb və əmək qanunvericiliyinin tələblərini pozanları əlavə cəza tədbirləri gözləyir. Məcəllənin 192.2-ci maddəsində göstərilir ki, işəgötürən tərəfindən işçilərin və iş yerlərinin attestasiyasının keçirilməsi qaydalarının pozulmasına görə yeddi yüz manatdan min iki yüz manatadək məbləğdə cərimə tətbiq ediləcək. Bundan başqa, işçiyə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş minimum əməkhaqqından aşağı məbləğdə əməkhaqqı verilməsinə görə vəzifəli şəxslər min manatdan min beş yüz manatadək cərimə olunacaqlar. Həmçinin, işçinin məzuniyyət hüquqlarının pozulması, ona əmək məzuniyyətinin verilməməsi, habelə istifadə edilməmiş əmək məzuniyyətinə görə müəyyən edilmiş kompensasiyanın ödənilməməsi halları baş verdikdə, işəgötürən şəxs min beş yüz manatdan iki min manatadək cəriməyə məruz qalacaq.

Yetkinlik yaşına çatmamış şəxslərin işə cəlb olunmasına görə də cərimələr artırılıb. İşəgötürən tərəfindən 15 yaşına çatmamış şəxsin işə cəlb edilməsinə görə vəzifəli şəxslər min manatdan min beş yüz manatadək, hüquqi şəxslər üç min manatdan beş min manatadək cərimə olunacaqlar. Bundan başqa, əsas dəyişikliklərdən biri fiziki iş görməyə malik əlilliyi olan şəxslərin işlə təmin olunmamasına görə cəza mexanizmlərinin müəyyən edilməsidir. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən göndərilmiş əlillərin, sağlamlıq imkanları məhdud olan 18 yaşınadək şəxslərin və sosial müdafiəyə xüsusi ehtiyacı olan digər şəxslərin onlar üçün kvota üzrə müəyyən olunmuş iş yerlərinə qəbul edilməməsinə, habelə dövlət büdcəsinə vəsait köçürülməməsinə görə min manatdan iki min manata qədər cərimə tətbiq ediləcək.

***Vergi və mühasibat sənədlərinin uçotuna nəzarət***

Əmək bazarına nəzarət, əmək müqavilələrinin bağlanması hallarının öyrənilməsi və digər tədbirləri də dövlət diqqət mərkəzində saxlayır və bu sahədə inzibati tədbirlərin görülməsi mexanizmləri yeni məcəllədə də öz əksini tapıb. Əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən icra orqanlarının iş yerlərinə buraxılmaması qəti şəkildə yolverilməz hesab edilir. Əgər müəssisə və təşkilatlar, sahibkarlıq subyektləri əmək qanunvericiliyində nəzərdə tutulmuş tələblərin yerinə yetirilmə vəziyyətini öyrənmək məqsədilə yoxlama aparan dövlət qurumlarının nümayəndələrinə maneə yaradarlarsa, onlar üç min beş yüz manatdan beş min manatadək cərimə olunacaqlar.



Dövlət müəssisələrində və sahibkarlıq subyektlərində şəffaflığın təmin edilməsi, vergi və mühasibat sənədlərinin uçotunun düzgün təşkili də yeni məcəllənin 462-ci maddəsi ilə tənzimlənəcək. Həmin maddəyə əsasən, mühasibat uçotu üzrə qanunvericiliyin pozulması, maliyyə hesabatlarının və uçot sənədlərinin saxtalaşdırılmasına, müəyyən edilmiş qaydaların pozulmasına görə vəzifəli şəxslər üç yüz manatdan dörd yüz manatadək, hüquqi şəxslər isə min beş yüz manatdan iki min manatadək cərimə olunacaqlar.

İnzibati Xətalar Məcəlləsində qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma ilə bağlı cəza tədbirlərinin mexanizmləri də müəyyən edilib: dövlət qeydiyyatına alınmadan və ya sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün lisenziya tələb olunduğu hallarda onu almadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa görə cərimələr iki dəfə artırılıb.

***Vergidən yayınanlara qarşı cəza tədbirləri ağırlaşdırılıb***

Sahibkarlıq fəaliyyəti hesab edilən lotereyaların və idman mərc oyunlarının qanunsuz təşkili və ya keçirilməsinə görə min beş yüz manatdan iki min manatadək cərimə müəyyənləşdirilib. Yalançı sahibkarlıqdan (yəni kredit almaq, rüsumlardan və vergilərdən azad olmaq və ya digər əmlak mənfəəti əldə etmək, yaxud qadağan edilmiş fəaliyyəti gizlətmək məqsədilə sahibkarlıq fəaliyyəti həyata keçirmək niyyəti olmadan müəssisə və digər hüquqi şəxs yaratmaq) əldə edilmiş gəlirin iki mislindən dörd mislinədək miqdarda cərimə nəzərdə tutulur. Məcəllədə aksiz markası ilə markalanmalı olan məhsulların belə marka olmadan satılması, satış məqsədi ilə saxlanması və ya istehsal binasının hüdudlarından kənara çıxarılması və nağd qaydada alğı-satqısına görə fiziki şəxslər yüz əlli manatdan iki yüz əlli manatadək, vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək, hüquqi şəxslər isə min beş yüz manatdan iki min beş yüz manatadək cərimə ediləcəklər.

Vergi ödənişlərindən boyun qaçıran şəxslərə İnzibati Xətalar Məcəlləsinin 460-cı maddəsi üzrə məsuliyyət nəzərdə tutulub: vergiləri və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayındıran, eləcə də az miqdarda vergiləri və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməyən şəxslər inzibati xətanın bilavasitə obyekti olmuş vergilərin və ödənişlərin məbləğinin otuz faizindən yetmiş faizinədək məbləğdə cərimə olunacaqlar.

***Minlərlə insan hələ də əmək müqaviləsi bağlamadan çalışır***

Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov hesab edir ki, 2014-cü ilin iyul ayından əmək müqaviləsi bildirişlərinin elektron formada təqdim edilməsinə baxmayaraq, işəgötürənlərin böyük bir qismi hələ də öz işçilərinin adlarını rəsmiləşdirmir, onların əmək və sosial hüquqlarını pozurlar: «Hazırda əmək müqaviləsi ilə işləyənlərin sayı təxminən 1,5 milyon nəfər təşkil edir, 3 milyondan çox məşğul insan isə mülki-hüquqi müqavilə ilə işləyir və ya xidmətlər göstərir. Onlar qeyri-formal əmək bazarının iştirakçılarıdır». S.Məmmədovun rəyinə görə, hansısa inzibati metodla, cəzaların sərtləşdirilməsi yolu ilə problemi tam aradan qaldırmaq mümkün olmadığı üçün çıxış yollarından biri mülki-hüquqi müqavilələrin bağlanması üzrə müvafiq kriteriyaların hazırlanmasıdır. Bundan başqa, Əmək Məcəlləsinə «sahibkar olmayan fiziki şəxs» anlayışının daxil edilməsi də məqsədəuyğundur.

**Elbrus CƏFƏRLİ**



## Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

# Vergi güzəşti

***Məcburi köçkünəm. Himayəmdə 3 azyaşlı uşaq var. Mənim əməkhaqqımdan tutulan gəlir vergisinə güzəşt tətbiq edilirmi?***

Vergi Məcəlləsinin (VM) 102.4.5-ci maddəsinə uyğun olaraq, məcburi köçkünlərin və onlara bərabər tutulan fiziki şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 100 manat məbləğində azaldılır. Bu güzəşt mənzil qanunvericiliyinə və ya mülki-hüquqi əqdlərə əsasən ayrıca mənzil sahəsi əldə etməsi nəticəsində daimi məskunlaşmış şəxslərə şamil olunmur.

VM-in 102.5-ci maddəsinə əsasən, qohumluq dərəcəsindən asılı olmayaraq, himayəsində azı üç nəfər, o cümlədən gündüz təhsil alan 23 yaşınadək şagirdlər və tələbələr olan ər və ya arvaddan birinin vergi tutulmalı olan aylıq gəliri 50 manat məbləğində azaldılır.

VM-in 102.8-ci maddəsində qeyd edilmişdir ki, əməkhaqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin bu maddədə sadalanan vergi güzəştləri hüququ müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş sənədlərin təqdim edildiyi andan yaranır və yalnız fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) həyata keçirilir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2001-ci il 4 yanvar tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş «Əməkhaqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı»nın 1.14-cü bəndinə əsasən, əməkhaqqından tutulan vergi hesablanarkən məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin güzəşt hüququ Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məcburi köçkün statusu haqqında vəsiqəsi əsasında müəyyənləşdirilir.

Qeyd olunan müddəalara əsasən:

Fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu iş yerində) muzdlu işlə əlaqədar əldə etdiyi gəliri himayəsində 3 uşaq olması ilə əlaqədar müvafiq təsdiqedici sənədlər (ər və ya arvaddan birinin güzəştdən istifadə edib-etməməsi barədə onların əsas iş yerindən işəgötürənin arayışı və Azərbaycan Respublikası Vergilər Nazirliyinin təsdiq etdiyi formada yerli icra hakimiyyəti və ya bələdiyyələr tərəfindən verilmiş arayış) təqdim edildiyi halda 50 manat məbləğində, məcburi köçkün olması ilə əlaqədar isə mənzil qanunvericiliyinə və ya mülki-hüquqi əqdlərə əsasən, ayrıca mənzil sahəsi əldə etməsi nəticəsində daimi məskunlaşmamışdırsa, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məcburi köçkün statusu haqqında vəsiqəsi əsasında əlavə olaraq 100 manat məbləğində azaldılır.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# Plastik kartlarla ödəniş bütün pensiyaçıları əhatə edir

Ötən il sığorta-pensiya sistemində beynəlxalq standartların tətbiqi və əmək pensiyaçılarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirlər davam etdirilib. Dövlət Sosial Müdafiə Fondundan (DSMF) verilən məlumata görə, sığorta-pensiya sahəsində beynəlxalq təcrübənin öyrənilməsi üçün Beynəlxalq Sosial Təminat Assosiasiyasının və müxtəlif ölkələrin sığorta-pensiya qurumları ilə əməkdaşlıq, həmçinin əmək miqrantlarının əmək fəaliyyəti dövründə müxtəlif dövlətlərin ərazisində qazanmış olduqları pensiya hüquqlarının tanınması və pensiya təyinatında nəzərə alınması prinsiplərini tənzimləyəcək ikitərəfli sazişlərin bağlanması istiqamətində tədbirlər həyata keçirilib. Bundan əlavə, ölkəmizdə könüllü sosial sığortalanmanın tətbiqi məqsədilə DSMF-də reallaşdırılan tvinninq layihəsi çərçivəsində beynəlxalq ekspertlərlə birgə dövlət sığorta-pensiya sistemində real yığım komponentinin tətbiqinə və qeyri-dövlət pensiya fondlarının fəaliyyətinin təşkilinə dair qanun layihələri hazırlanaraq geniş ictimai müzakirəyə verilib.

Sığortaedənlərdə auditin elektron qaydada aparılması üçün beynəlxalq təcrübənin öyrənilməsi, elektron auditin tətbiqi məqsədilə hüquqi bazanın inkişaf etdirilməsi, metodologiyasının hazırlanması və bu sistemə keçid üçün kadr potensialının gücləndirilməsi məqsədilə Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti çərçivəsində təqdim edilmiş tvinninq layihəsi Avropa Komissiyası tərəfindən təsdiq olunub. Eləcə də dövlət başçısının 2014-cü ildə təsdiq etdiyi «2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası»nın icrası məqsədilə aidiyyəti dövlət orqanları ilə birlikdə «Əmək pensiyaları haqqında» Qanunda dəyişikliklər edilməsi barədə» qanun layihəsi hazırlanaraq təqdim olunub. Konsepsiyaya əsasən, Azərbaycanda pensiya təminatı sisteminin perspektiv inkişafının aktuar modelləşdirmə əsasında proqnozlaşdırılmasının təşkili üçün zəruri daxili texniki və institusional potensialın artırılması məqsədilə tədbirlər həyata keçirilib. Dünya Bankı ilə birlikdə PROST modeli Azərbaycanın sığorta-pensiya sistemində tətbiq edilib və Avropa İttifaqının Avropa Qonşuluq və Əməkdaşlıq Aləti olan TAIEX proqramı çərçivəsində «Aktuar tədqiqatlar və pensiya sistemi üzrə modelləşdirmə» layihəsi reallaşdırılıb.

Hesabat dövründə vətəndaşların müəyyən olunmuş qrafikə uyğun qəbulu, onların müraciətlərinə, ərizə və şikayətlərinə vaxtında baxılması və haqlı tələblərinin həll edilməsi də təmin edilib. 2015-ci ildə fondun aparatına vətəndaşlardan 5930 müraciət daxil olub ki, bu da 2014-cü illə müqayisədə 26% azalıb.

Ötən il məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 2014-cü ilə nisbətən 3,6% və ya 62 mln. manat artaraq 1805,7 mln. manat təşkil edib. 2015-ci ildə sosial sığorta haqlarının 64,2%-i və ya 1159,2 mln. manatı qeyri-büdcə sektorundan daxil olub ki, bu da əvvəlki ilə nisbətən 3,3% və ya 36,6 mln. manat çoxdur. Fondun daxilolmalarının artım səviyyəsi hər ay pensiya və müavinətlərin qrafikdən əvvəl maliyyələşdirilməsinə imkan verib. Ötən il Dövlət Sosial Müdafiə Fondunun xərcləri 2934,2 mln. manat təşkil edib ki, bunun da 2872 mln. manatı və yaxud 97,9%-i əhaliyə ödənişlərə yönəldilib. Əmək pensiyaları ilə bağlı xərclər 2797,3 mln. manat, məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinətlər isə 74,7 mln. manat olub.



Ötən il DSMF-nin fəaliyyətinin avtomatlaşdırılması istiqamətində tədbirlər davam etdirilib. Pensiyaların plastik kartlarla ödənişinin kənd yerlərində yaşayan pensiyaçıları əhatə etməsi tədbirləri daha da genişləndirilib və nəticədə pensiya ödənişi aparılan bütün pensiyaçıların pensiyasının plastik kartlarla ödənilməsi təmin olunub.

**A.NƏBİYEVA**

# Manata inamı artırmaq üçün daha bir təklif

Kommersiya banklarının sığortalanan əmanətlərin faiz dərəcəsinin maksimal səviyyədə qaldırılması ilə bağlı təkliflərini nəzərə alaraq, Azərbaycan Banklar Assosiasiyası Əmanətlərin Sığortalanması Fonduna müraciət edib. Əsas məqsəd manatla yerləşdirilən əmanətlərin yığım cəlbediciliyini artırmaqdır.

Bank Tədris Mərkəzinin rəhbəri Cavanşir Abdullayevin sözlərinə görə, bu ilin yanvar ayında Milli Məclis tərəfindən «Əmanətlərin sığortalanması haqqında» Qanunun qəbulundan sonra da manatla depozit yığımları istənilən səviyyədə olmadı. Həmin qanuna əsasən, sığortalanan əmanətlərə görə maksimal faiz dərəcəsi 12% təşkil edir və bunun kifayət qədər yüksək göstərici olmasına baxmayaraq, əhali növbəti devalvasiyanın olacağından çəkinərək, hələ də milli valyuta ilə əmanət saxlamağa ehtiyat edir. Cari ilin yanvar ayında banklara 50 milyon manat həcmində milli valyuta ilə əmanət yerləşdirilib ki, bu da əvvəlki illərlə müqayisədə təxminən 4 dəfə azdır.

C.Abdullayevin fikrincə, maksimal faiz dərəcəsi yüksələrsə, əhali manatla vəsaitləri banklara daha çox əmanət edər. İndi bankların vəsait əldə etmək imkanları xeyli çətinləşib, son bir ildə iki dəfə devalvasiyanın baş verməsi ən çox bank sektoruna zərər vurub. 2015-ci ilin fevral və dekabr məzənnə dəyişiklikləri banklara 1 milyard manat zərərlə başa gəlib. Halbuki onların il ərzində qazancı 220-250 milyon manat olurdu. Beləliklə, devalvasiyadan böyük həcmdə maliyyə itkiləri ilə çıxan banklar faktiki olaraq bir ildir ki, gəlirlərdən də məhrum olub və ötən ilin birinci rübündən indiyədək, 3-4 bank istisna olmaqla, bütün banklar zərərlə işləyir.

Kommersiya banklarının vəsaitləri əsasən vətəndaşların qoyduğu əmanətlərdən formalaşır, son bir ildə insanların böyük bir qismi pullarını banklardan çıxarıblar və bu amil bank aktivlərinin azalmasına gətirib çıxarıb. Ona görə də kommersiya bankları sığorta olunmuş əmanətlər üzrə faiz dərəcələrinin artırılması təklif edirlər.

Mütəxəssis bir müddət əvvəl vətəndaşları manatla depozitlərin cəlb edilməsinə həvəsləndirmək üçün Azərbaycan Banklar Assosiasiyasının vergi güzəştləri ilə bağlı irəli sürdüyü təklifin qəbul olunduğunu, bu qərarın yığımlara müəyyən dərəcədə müsbət təsir edəcəyini vurğulayıb: «Dövlət banklardakı manat depozitlərinin etibarlılığını qorumaq üçün vergi güzəştlərinin tətbiqinə qərar verdi və bu addım bankların kapitallaşmasına şərait yaratmaqla yanaşı, əhalinin dividend əldə etmək imkanlarını da stimullaşdırır».

**E.CƏFƏRLİ**

# İcbari tibbi sığortanın tətbiqi istiqamətində vacib qərar

Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Əsasnaməsi təsdiq edilib. Bundan sonra ölkədə icbari tibbi sığorta sahəsində vahid dövlət siyasətinin formalaşması, icbari tibbi sığorta sahəsinin inkişafının təmin edilməsi və tibbi xidmətlərdən istifadə zamanı əhali üçün bərabər şərtlərin yaradılması, onun əlçatanlığı, vətəndaşların sağlamlığının qorunması və yaxşılaşdırılması məqsədilə tibbi xidmətlərin keyfiyyət və səmərəliliyinin artırılması istiqamətində tədbirlər agentlik tərəfindən həyata keçiriləcək. Agentlik, həmçinin, icbari tibbi sığorta sahəsi üzrə dövlət proqramlarının, strategiyaların və inkişaf konsepsiyalarının icrasında iştirak edəcək, tibb müəssisələri ilə müqavilələr bağlayacaq, sığortaolunanlara baza zərfi çərçivəsində göstərilən profilaktika, müalicə və reabilitasiya yardımının həcminin, müddətinin, keyfiyyətinin və qiymətinin tərəflərlə bağlanılmış müqavilənin şərtlərinə uyğun olmasına nəzarət edəcək, icbari tibbi sığorta sahəsində mütəxəssislərə təlimlər təşkil edəcək.

Bunlarla yanaşı, agentlik icbari tibbi sığorta üzrə sığortaolunanların məlumat bankını da təşkil edəcək, icbari tibbi sığorta sisteminin fəaliyyətinin təmin olunması üzrə metodik fəaliyyəti həyata keçirəcək. Tibb müəssisəsinin və tibb işçisinin təqsiri üzündən sığortaolunana vurulmuş zərərin ödənilməsi sahəsində də agentlik ciddi addımlar atmaq imkanlarına malik olacaq.

Qəzetimizə açıqlama verən iqtisadçı-ekspert Vüqar Bayramovun sözlərinə görə, ölkədə icbari tibbi sığortanın tətbiqi baxımından bu agentliyin fəaliyyəti olduqca vacibdir: «Əslində, Azərbaycanda icbari tibbi sığortanın tətbiqinə 1999-cu ildə cəhd edilmiş, qanunvericilik bazasının formalaşmasına başlanılmışdır. Lakin ötən müddət ərzində buna nail olmamağın başlıca səbəbi institusional bazasının tam formalaşmaması idi». İqtisadçı hesab edir ki, institusional bazanın gücləndirilməsi və agentliyin fəaliyyətinin formalaşması icbari tibbi sığortanın tətbiqi aspektinə yeni imkanlar açacaq: «İcbari tibbi sığortanın tətbiqi həm də bu sektorda idarəetmə imkanlarının genişləndirilməsi və daha çevik sistemə malik olmaqdan keçir. Agentliyin fəaliyyətinin genişləndirilməsi icbari tibbi sığortanın formalaşması ilə bağlı yeni qaydaların qəbuluna və daha çevik qərarların verilməsinə də şərait yaradacaq. Vətəndaşların icbari tibbi sığorta sistemindən daha sıx və səmərəli istifadəsi imkanları mümkün olacaq. İcbari tibbi sığortanın tətbiqində uzun zaman müzakirə olunan aylıq ödənişlərin məbləği, ödənişlərin işçi və işəgötürən arasında hansı formada həyata keçirilməsi, sığorta paketinə hansı səhiyyə xidmətlərinin daxil edilməsi, eləcə də tibb müəsssisələri və sığorta şirkətləri arasında münasibətlərin genişləndirilməsi kimi məsələlər də həllini tapa biləcək. Buna görə də agentliyin fəaliyyəti əhəmiyyətli mərhələ kimi qiymətləndirilməlidir. Pilot layihələrin icrasına başlamaqla, yaxın zamanlarda icbari tibbi sığortanın tam tətbiqi həyata keçirilə bilər».

Müsahibimizin sözlərinə görə, icbari tibbi sığorta ilə bağlı cavabı açıq qalan bəzi məsələlər də var: «Misal üçün, işləməyən, ünvanlı dövlət sosial yardımı alan vətəndaşlar üçün icbari tibbi sığortanın necə müəyyənləşdirilməsi, hansı dövlət qurumları tərəfindən həyata keçirilməsi hələ açıq qalır. Həmçinin, xəstəxanalarla sığorta şirkətləri arasındakı münasibətlərin tam sivil səviyyədə formalaşdırılmasına, səhiyyə xidmətləri ilə bağlı müəyyən qaydaların tətbiq edilməsinə də ehtiyac var».

**AYTƏN**

# Beynəlxalq sərgi və konfranslar ölkənin biznes perspektivlərini genişləndirir

Bu il Bakı şəhərini zəngin sərgi mövsümü gözləyir: yaxın vaxtlarda paytaxtımızda bir neçə beynəlxalq sərgi və konfrans öz yubileyini qeyd edəcək. Paytaxtımızda ümumilikdə 17 mühüm tədbirin – 16 sərginin və bir konfransın keçirilməsi planlaşdırılır.

Aidiyyəti dövlət strukturlarının dəstəyi ilə Bakı Ekspo Mərkəzində keçirilməsi gözlənilən sərgilərin ölkə iqtisadiyyatındakı rolu və əhəmiyyəti nəzərə alınaraq, bəzi tədbirlərdə Prezident İlham Əliyev, eləcə də ayrı-ayrı ölkələrin hökumət nümayəndələri, xarici dövlətlərin çoxlu sayda şirkətləri iştirak edəcək. Buna görə də təşkilatçılar tədbirlərin proqramlarına böyük əhəmiyyət verirlər. Sərgilərdə həm eksponentlərin, həm də qonaqların rahatlığı üçün bir sıra xidmət növü təklif olunacaq. Ziyarətçilərin qeydiyyatı «Fast Track» servisi vasitəsilə onlayn qaydada aparılacaq. Eksponentlər və sərgi qonaqlarının rahatlığı üçün bir sıra xidmətlər təklif olunacaq, ziyarətçilər üçün xüsusi rahat avtobuslar ayrılacaq, avtobuslar metronun «Koroğlu» stansiyası ilə Bakı Ekspo Mərkəzi arasında pulsuz xidmət göstərəcək. Həmçinin sərginin keçirildiyi ərazidə iştirakçılar üçün biznes və mətbuat mərkəzləri fəaliyyət göstərəcək.

Bu il dörd sərgi öz yubileyini qeyd edəcək: mövsüm 15-ci Azərbaycan beynəlxalq turizm və səyahətlər sərgisi - «AITF 2016» və 10-cu Qafqaz beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgisi - «HOREX Caucasus 2016» ilə açılacaq.

Ötən illər ərzində mühüm beynəlxalq görüşlərin keçirildiyi, tərəfdaşlıq müqavilələrinin imzalandığı, habelə yeni proqram və istiqamətlərin elan edildiyi «HOREX» və «AITF» sərgiləri turizm sənayesinin əsas tədbiri kimi imic qazanıb. Ümumdünya Turizm Təşkilatı (UNWTO) və Asiya-Sakit Okean Turizm Assosiasiyası (PATA) «AITF» sərgisinə dəstək göstərən beynəlxalq təşkilatlar arasındadır. Bu ilki sərgidə dünyanın 40 ölkəsini təmsil edən 200-dən artıq şirkətin iştirakı gözlənilir. Tədbirdə Azərbaycanın aparıcı turizm şirkətləri, otel və sanatoriyaları da təqdim ediləcək.

Dünyanı bürüyən maliyyə böhranına baxmayaraq, bazarın ən iri iştirakçıları bu sərgilərə sponsorluğunu davam etdirir. Hazırda şirkətlər yaxşı başa düşürlər ki, sərgilər və beynəlxalq konfranslar problemləri müzakirə etmək və həll yollarını müəyyənləşdirmək üçün yaxşı imkanlar açır. Hər bir şirkət bu tədbirlərdə özünü təqdim etməklə yanaşı, həm özü, həm də istehsal etdiyi məhsullar barədə məlumat verir, yeni satış kanalları axtarırlar. Bu baxımdan, sərgilər yeni imkanlar yaradaraq biznes perspektivlərini daha da genişləndirir.

*Beynəlxalq sərgi və konfranslarda tədbir iştirakçılarına Vergilər Nazirliyinin stendi də təqdim ediləcək. Burada «195» Çağrı Mərkəzi, əmək müqavilələri ilə bağlı elanlar, fiziki şəxslərin gəlir vergisi, müəssisələrin əmlak vergisi, mədən, mənfəət vergisinin növləri, eləcə də vergi öhdəliklərinin yerinə yetirilməsi və bəyannamələrin təqdim edilməsi müddəti, ödəmə mənbəyində vergilərin tutulması və s. aid materiallar nümayiş olunacaq. Vergi ödəyicilərinə hesabatların elektron formada düzgün doldurulması və təhvil verilməsi qaydaları izah olunacaq, iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılacaq.*

**Rəşad SADIQOV**

# Qeyri-neft sektorunun inkişafında əsas faktorlar

Azərbaycanda ötən illərdə qeydə alınan sürətli iqtisadi inkişafda neft sektorunun rolu aparıcı olsa da, son dövrlər qeyri-neft sektoru ümumi iqtisadi artımda önə çıxmaqdadır.

Qeyri-neft sektoru üzrə vergi daxilolmaları ümumi vergi daxilolmalarının 70,6%-ini təşkil edir. Keçən il Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 7 milyard 118,3 milyon manat vəsait daxil olmuşdur ki, bu da gəlirlərin 41,5 %-i deməkdir. Ümumiyyətlə, 2015-ci ildə qeyri-neft sektoru üzrə büdcə daxilolmaları 6 milyard 933,3 milyon manat və ya 102,7% icra edilməklə proqnozda nəzərdə tutulduğundan 183,3 milyon manat, 2014-cü illə müqayisədə isə 676,9 milyon manat (9,8%) çox təşkil etmişdir. Ümumi büdcə gəlirləri qeyri-neft sektorunun xüsusi çəkisi 40,4% olmuşdur ki, bu da 2014-cü illə müqayisədə 6,4 bənd çoxdur.

*2015-ci ildə qeyri-neft sektoru üzrə büdcə daxilolmaları 6 milyard 933,3 milyon manat və ya 102,7% icra edilməklə proqnozda nəzərdə tutulduğundan 183,3 milyon manat, 2014-cü illə müqayisədə isə 676,9 milyon manat (9,8%) çox təşkil etmişdir*

İqtisadçı ekspert Pərviz Heydərov mövzu ilə bağlı açıqlamasında bildirmişdir ki, ölkəmizdə neft gəlirləri hələ yüksək olan illərdə də qeyri-neft sektorunun inkişafına diqqət yetirilmişdir: «Dövlət başçısının «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqda fərmanını xatırlatmaq yerinə düşər. Həmin Konsepsiyaya görə, ölkədə 2020-ci ilə qədər ümumi daxili məhsul istehsalı 2 dəfə artmalıdır və buna qeyri-neft sektorunun hesabına nail olmaq nəzərdə tutulmuşdur». P.Heydərov əlavə etmişdir ki, sadəcə olaraq, qeyri-neft sektorunun inkişafı müəyyən vaxt və dəqiq yanaşma tələb edir. Neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar tez-tələsik qeyri-neft sektorundan ən yüksək nəticələr gözləmək yersizdir. Bu məqsədə doğru addım-addım, mərhələlərlə irəliləmək lazım gəlir. Ötən illərin Azərbaycanda «Turizm ili», «İKT ili», «Sənaye ili», «Kənd təsərrüfatı ili» elan olunması bu yanaşmanın dövlətimiz üçün prioritet olduğunu göstərir.

Mərkəzi Bankın keçən ilin sonunda həyata keçirdiyi ikinci devalvasiya tədbirindən 2 ay ötür. Hazırda hökumətin qarşısında çox böyük vəzifələr dayanır. Cari ilin yanvar ayında Prezident İlham Əliyevin bir-birinin ardınca 3 müşavirə keçirməsi, eləcə də iqtisadiyyatın inkişafı və idarə olunması ilə bağlı imzaladığı fərman və digər normativ sənədlər vəziyyətdən çıxış imkanlarının bilavasitə dövlət başçısının nəzarəti altında olduğunu göstərir. Ekspertin sözlərinə görə, yaranmış situasiya ilə əlaqədar tamamilə yeni iqtisadi inkişaf modeli yaratmaq məqsədilə hökumət genişmiqyaslı islahatlar müstəvisinə daxil olub: «Qeyri-neft sektorunun inkişafında əsas məsələ orada nəyi və necə istehsal etməkdir. İstehsal etdiyimiz məhsullar öz xarici analoqları ilə həm ölkə daxilində, həm də xarici bazarlarda rəqabət qabiliyyətində olmalıdır. Prezident investisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında fərman imzalayıb. Xarici investorlarla yanaşı, yerli sahibkarlara da ölkə iqtisadiyyatına bacardıqca çox sərmayə qoymaları tələb olunur. Sərmayələr daha çox istehsal sahələrinin yaradılması, kənd təsərrüfatı, sənayenin inkişafına və xidmət sektoruna yatırılmalıdır. Dövlət qurumları - mərkəzi və yerli icra orqanlarının qarşısında isə sahibkarlara hər cür şərait yaratmaq tələbi qoyulub. Tezliklə geniş özəlləşdirmə prosesinə başlanılacaq. Bu gün ölkədə özəlləşdirilə bilinən və hətta bunun vacib sayıldığı sahə və müəssisələr çoxdur. Biznes mühitini yaxşılaşdırmaq, iqtisadi aktivlik yaratmaq və bu sahədə sürətli prosesə nail olmaq üçün həmin müəssisələr özəlləşdiriləcək. Xarici və yerli investorlar da bu işə cəlb ediləcəklər. Bundan əlavə, maliyyə bazarında tarazlığı bərpa etmək, nəzarəti artırmaq və düzgün tənzimləməyə nail olmaq məqsədilə yeni mərkəzi vahid qurum - Maliyyə Bazarlarına Nəzarət Palatası yaradılıb. Bank sektorunda köklü şəkildə struktur dəyişiklikləri aparılır. Kapital axınına isə inzibati müdaxilə tədbirlərinin tətbiqinə başlanılıb».

Beynəlxalq Valyuta Fondunun bu günlərdə Bakıda olmuş faktaraşdırma missiyasının bəyanatında da Azərbaycanda yaranmış çətinliklərin öhdəsindən gəlmək üçün əlavə cavab tədbirləri görülməli olduğu, o cümlədən dövlət üçün zəruri ehtiyatları gücləndirmək lazım gəldiyi vurğulanıb. Missiya qeyd edib ki, yaxın gələcəkdə proqnozlaşdırma, o cümlədən iqtisadi inkişaf və ödəniş balansına təzyiqlər dövlət orqanları üçün əsas çətinlik olaraq qalacaq.

**F.İKRAMQIZI**

## BİR CÜMLƏ - BİR XƏBƏR

2006-2015-ci illərdə Azərbaycanda əsas kapitala ümumi investisiya qoyuluşları 120,9 mlrd. manatı ötüb.

Monteneqroda Azərbaycan bankı fəaliyyət göstərəcək.

Azərbaycan və Avstriya arasında kənd təsərrüfatı üzrə əməkdaşlıq sənədi imzalanacaq.

Azərbaycan və İran arasında Araz çayı üzərində «Xudafərin» və «Qız qalası» hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinə dair saziş imzalanıb.

Bakıda «Ekoloji park» yaradılacaq.

«Naz Lifan» üç yeni modeldə avtomobil istehsal edəcək.

Avropa Yenidənqurma və İnkişaf Bankının nümayəndə heyəti Azərbaycana səfər edəcək.

Asiya İnkişaf Bankı ölkəmizdə həyata keçirilən şəhərsalma, nəqliyyat və su sahəsində layihələrə dəstək göstərəcək.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycanda Tərəfdaşlıq və Əlaqələndirmə Ofisi açılıb.

# Sahibkarlığa dəstək layihələri davam etdirilir

Azərbaycanda sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindəndir. İqtisadiyyatın bütün sahələrində müasir sahibkarlıq subyektlərinin formalaşması və potensiallarından səmərəli istifadə etmələri üçün geniş imkanlar yaradılır.

Ölkədə sənayeləşmə prosesinin sürətləndirilməsində müvafiq institutların yaradılması və onların fəaliyyətinin genişləndirilməsi mühüm rol oynayır. İqtisadiyyat Nazirliyindən aldığımız məlumata görə, hazırda Sumqayıt, Balaxanı, Mingəçevir sənaye parklarının təşkili, Neftçala sənaye məhəlləsində infrastrukturun yaradılması işləri intensiv şəkildə davam etdirilir. Sənaye sahəsində həyata keçirilən ardıcıl və sistemli tədbirlər, o cümlədən müasir texnologiyalara və qabaqcıl təcrübəyə əsaslanan müəssisələrin yaradılması rəqabətqabiliyyətli məhsul istehsalını genişləndirməklə yanaşı, idxalın əvəz edilməsinə və ölkəmizin özünütəminetmə səviyyəsinin yüksəlməsinə müsbət təsir göstərir. Hazırda Azərbaycanın bəzi sənaye məhsulları xarici bazarlara çıxarılır.



Kənd təsərrüfatı ölkə iqtisadiyyatının mühüm tərkib hissəsi olmaqla, qeyri-neft sektorunun inkişafı baxımından dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Aqrar sektora güzəştli kreditlərin, vergi güzəştlərinin, subsidiyaların verilməsi, aqrolizinq xidmətlərinin göstərilməsi və digər dövlət dəstəyi tədbirləri nəticəsində bir sıra ərzaq məhsullarının istehsalı artmış, ölkəmizin özünütəminetmə səviyyəsi yüksəlmişdir.

«2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»na uyğun olaraq, son illər yaradılmış müasir quşçuluq və heyvandarlıq kompleksləri, intensiv bağçılıq və üzümçülük təsərrüfatları, logistik mərkəzlər və taxıl anbarları kompleksi aqrar sektorda ciddi dönüşün əldə edilməsinə, ixrac potensialının artmasına, ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə səbəb olmuşdur.

İqtisadiyyat Nazirliyindən bildirilir ki, hazırda 19 rayonda 40 min hektardan artıq sahədə 29 iri fermer taxılçılıq təsərrüfatının yaradılması başa çatmışdır və fəaliyyət göstərən təsərrüfatlarda məhsuldarlıq hər hektardan 58-60 sentner təşkil edir. Şəmkir və Xaçmaz rayonlarında yaradılan aqroparklarda 1-ci mərhələ üzrə işlər yekunlaşmaq üzrədir. Hazırda digər regionlarda da yeni iri fermer təsərrüfatlarının, aqroparkların yaradılması imkanları araşdırılır.

Azərbaycanda iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması və şaxələndirilməsi ölkənin xarici ticarət əlaqələrinə də müsbət təsir göstərir, qeyri-neft ixracının inkişaf dinamikası davam edir. Yeni bazarlara çıxışın təmin edilməsi ilə bağlı reallaşdırılan tədbirlər çərçivəsində Qazaxıstanın Aktau şəhərində kənd təsərrüfatı və digər qida məhsullarının saxlanılmasını və satışını təmin edəcək logistik mərkəz yaradılmışdır. Mərkəz sahibkarlara, xüsusilə də ixracatçılara bir sıra imkanlar və üstünlüklər təqdim edir.

2015-ci ildə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 5243 sahibkara 248,5 milyon manat güzəştli kredit verilmişdir ki, bu kreditlər 12.600-dək yeni iş yerinin açılmasına imkan yaratmışdır. Verilmiş kreditlərin 64%-i regionların, 36%-i Bakı şəhərinin qəsəbələrinin payına düşür. Ötən il sahibkarların maarifləndirilməsi, onlara metodiki köməkliyin, məsləhət və informasiya xidmətlərinin göstərilməsi məqsədilə 3 mindən artıq sahibkarın iştirakı ilə 132 tədbir keçirilmişdir. Son illərdə 256 sahibkarın Almaniyada iqtisadi kooperasiya üzrə ixtisasını artırması təşkil olunmuşdur.

Sahibkarlara göstərilən dövlət dəstəyinin gücləndirilməsi, gənclərin sahibkarlıq təşəbbüsünün dəstəklənməsi, yeni biznes və məşğulluq imkanlarının yaradılması məqsədilə Quba-Xaçmaz Regional İnkişaf Mərkəzində ölkədə ilk biznes inkubatoru təşkil edilmişdir.

İqtisadiyyat Nazirliyinin təsisçiliyi ilə yaradılmış Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ölkə sahibkarlarının ixrac potensialının artırılmasında, investisiya imkanlarının genişləndirilməsində, potensial tərəfdaşların tapılmasında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində sahibkarlara yaxından dəstək verir. 2015-ci ildə AZPROMO tərəfindən 177-si Azərbaycanda, 84-ü isə xarici ölkələrdə olmaqla, 261 tədbir təşkil olunmuşdur.

Sahibkarların, xüsusilə də kənd təsərrüfatı məhsulları istehsalçılarının bazara sərbəst çıxışının dəstəklənməsi, onların biznes əlaqələrinin genişləndirilməsi, mal və xidmətlərin elektron qaydada alğı-satqısının təşkili məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən yaradılmış www.b2b.az elektron ticarət portalı uğurlu modellərdəndir.

Sahibkarlığın inkişaf etdirilməsi istiqamətində həyata keçirilən siyasət çərçivəsində lisenziyalaşdırma sistemi təkmilləşdirilmiş, investisiyaların təşviqi və qeyri-neft məhsullarının ixracının stimullaşdırılması sahəsində mühüm qərarlar qəbul edilmişdir. Nəticədə lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilmiş, lisenziyalar müddətsiz müəyyən olunmuş, lisenziyanın verilməsinə görə ödənilən dövlət rüsumunun məbləği təxminən 2 dəfə azaldılmışdır. Həmin fəaliyyət növü regionlarda həyata keçirildiyi hallarda isə dövlət rüsumu 4 dəfə az ödəniləcəkdir. Artıq lisenziyalar İqtisadiyyat Nazirliyi tərəfindən «ASAN xidmət» mərkəzlərində verilir ki, bu da sahibkarlıq fəaliyyətinin səmərəli təşkilində və şəffaflığın təmin olunmasında xüsusilə önəmlidir.

Bundan başqa, müvafiq qanunvericilikdə edilmiş dəyişikliklərə əsasən, prioritet hesab edilən sahələrdə investisiya fəaliyyəti həyata keçirən sahibkarların investisiya təşviqi sənədini aldıqları andan idxal etdikləri texnika, texnoloji avadanlıqlar və qurğular 7 il müddətinə gömrük rüsumlarından azad olunur. Eyni zamanda, sahibkarlar investisiya təşviqi sənədinə əsasən 7 il müddətinə fiziki şəxslərin gəlirinin və hüquqi şəxslərin mənfəətinin 50%-nə görə vergidən, həmçinin əmlak və torpaq vergisindən, müvafiq təsdiqedici sənəd əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalına görə ƏDV-dən azaddır.

«Dövlət satınalmaları haqqında» Qanunda edilmiş dəyişikliyə əsasən, yerli sahibkarlara güzəştin 20%-dək yüksəldilməsi onların tender layihələrini qazanmaq imkanlarını artırmaqla yerli istehsalın genişlənməsinə əlavə dəstək verəcəkdir.

**Fəxriyyə İKRAMQIZI**

# Kiçik fermerlər kollektiv təsərrüfatda birləşir

Yerli istehsalı stimullaşdırmaq və ənənəvi sahələri dirçəltmək sahəsində əsas ağırlıq regionlardakı istehsalçıların, iqtisadi fəal əhalinin 60%-dən çoxunu təşkil edən kənd təsərrüfatı mülkiyyətçilərinin üzərinə düşür.

Rayonlarda texnika, mineral gübrə, suvarma, maliyyə problemlərindən əziyyət çəkən torpaq mülkiyyətçiləri çıxış yolu kimi kooperativlərdə birləşməyi məqsədəuyğun hesab edir, birgə əkib-becərməklə yaxşı məhsul əldə edə, torpaqdan qazanc götürə biləcəklərinə inanırlar. Salyan rayonunda bir qrup torpaq sahibi artıq ilk kollektiv istehsalat təsərrüfatı yaradıblar. 1000 hektar sahəni əhatə edən ilk kollektiv təsərrüfatda rayonun Qarabağlı, Kərimbəyli, Təzəkənd və Kolanı kəndlərinin sakinləri birləşiblər.

Bəs bu təsərrüfatın hansı üstünlükləri var və dövlətin buna münasibəti necədir?

Kənd Təsərrüfatı Nazirliyinin (KTN) şöbə müdiri Firdovsi Fikrətzadənin sözlərinə görə, birgə təsərrüfat kooperasiyanın bir forması hesab olunur və dövlət tərəfindən dəstəklənir. Hökumət hazırda şəxsi fermer təsərrüfatlarının inkişafı ilə yanaşı, kiçik fermer təsərrüfatlarının birgə təsərrüfatlarda və kooperasiyalarda birləşməsinə köməklik göstərmək niyyətindədir.

«Kənd təsərrüfatı kooperasiyası haqqında» qanun layihəsində kiçik fermer təsərrüfatlarının vahid şəkildə birləşdikdən sonra istehsalçı, istehlakçı və marketinq problemlərinin həlli üçün ayrı-ayrı kooperativlərin yaradılması nəzərdə tutulub. Layihəyə əsasən, illik istehsalın 60 faizdən az olmayan hissəsini bitkiçilik, heyvandarlıq, kənd təsərrüfatı və su bioresurslarından, o cümlədən onların məhsullarının emalından əldə olunan kooperativ - kənd təsərrüfatı kooperativinə aid edilir. Gələcəkdə kooperativlərin vahid bir qurum tərəfindən idarə olunması planlaşdırılır. Kooperativlər və birgə təsərrüfatlar istehsalın intensivliyinin təmin olunması, iqtisadi rentabellik və əhalinin məşğulluq səviyyəsinin artması, yeni iş yerlərinin açılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu cür təsərrüfatlar sərmayələr üçün cəlbedici olmaqla yanaşı, həm də ixrac yönümlü məhsul istehsalında daha böyük imkanlara malikdir.

Dövlətin dəstəyinə gəlincə, bu məqsədlə yeni sığorta mexanizminin yaradılması, kooperativlərə və kənd sakinlərinə göstərilən maliyyə-kredit xidmətlərinin genişləndirilməsi, kooperativlərin güzəştli şərtlərlə kreditləşməsinin təmin edilməsi, istehsal vasitələrinə olan tələbatın güzəştli lizinq şərtləri hesabına qarşılanması, torpaq sahələrinin, gələcək məhsulların və tikinti obyektlərinin girov qoyulması yolu ilə kooperativlərə kredit ayrılması və kredit zəmanəti fondunun yaradılması daxildir.

Kooperativlərin satış şəbəkələrinin yaradılması da dövlət dəstəyi ilə həyata keçiriləcək. Layihəyə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçıları ilə istehlakçıları arasında birbaşa əlaqə yaratmaq, mövcud bazarlarla rəqabət aparmaq və qiymətlərin bahalaşmasının qarşısını almaq məqsədilə kooperativlərin nəzdində satış şəbəkələri - fermer mağazaları, yaşıl marketlər, topdansatış mərkəzləri təşkil ediləcək.



KTN rəsmisi birgə təsərrüfatlarla yanaşı, aqrar sahənin inkişafına dair dövlət proqramında əsas yer tutan məsələlərdən biri kimi müasir aqrar layihələrin həyata keçirilməsinin də nəzərdə tutulduğunu bildirib. Bu sahədə Türkiyə Xarici İqtisadi Əlaqələr Təşkilatı Azərbaycanda kənd təsərrüfatının perspektiv sahələrinin inkişafına öz dəstəyini göstərəcək. Qardaş ölkənin aqrar sahədəki təcrübəsi öyrəniləcək, birgə müəssisələr yaradılacaq.

**ELBRUS**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Siyasi partiyalar tərəfindən uçotun qurulması və maliyyə hesabatlarının təqdim edilməsi

«Mühasibat uçotu haqqında» Azərbaycan Respublikası Qanununa əsasən, siyasi partiya mühasibat uçotu baxımından «qeyri-kommersiya təşkilatı» anlayışına uyğun gəlir. Siyasi partiya mühasibat uçotunu «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 30 avqust tarixli 238 nömrəli qərarı ilə təsdiq edilmiş «Siyasi partiyalarda sadələşdirilmiş mühasibat uçotunun aparılması Qaydaları»na və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 16 noyabr tarixli 263 nömrəli qərarı ilə təsdiq edilmiş «Siyasi partiyaların illik maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi Qaydası»na uyğun həyata keçirməlidir.

«Siyasi partiyalarda sadələşdirilmiş mühasibat uçotunun aparılması Qaydaları»nda mühasibat uçotunun qurulması (sadələşdirilmiş mühasibat uçotunun aparılması), maliyyə hesabatlarının hazırlanması və tərtib edilməsi qaydaları, həmçinin mühasibat uçotunda ikili yazılışların verilməsi məqsədilə istifadə olunan hesablar planı haqqında tələblər əks etdirilmişdir. Hər bir halda siyasi partiyalar öz uçotunu bu Qaydalara uyğun qurmalıdırlar.

Uçotun son «məhsulu» olan maliyyə hesabatlarının formaları, tərkib hissələri, təqdim edilməsi və bunlarla bağlı digər tələblər isə başqa Qayda ilə tənzimlənir. «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikası Qanununun 14.6-cı maddəsində göstərilir ki, siyasi partiyaların maliyyə hesabatlarının forması, məzmunu və təqdim edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Müvafiq icra hakimiyyəti orqanı kimi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 16 noyabr tarixli 263 nömrəli qərarı ilə təsdiq edilmiş «Siyasi partiyaların illik maliyyə hesabatının forması, məzmunu və təqdim edilmə Qaydası»na uyğun olaraq, siyasi partiyalar tərəfindən hazırlanmalı olan maliyyə hesabatlarının tərkib hissələri aşağıdakı kimidir:

1. Maliyyə vəziyyəti haqqında hesabat (1№-li forma);

2. Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat (2№-li forma);

3. Əhəmiyyətli uçot siyasəti və izahlı qeydlər.

Qaydaların (AR NK, Qərar № 263, 16.11.2012-ci il) 5.1-ci bəndinə əsasən, siyasi partiyaların illik maliyyə hesabatları auditor rəyi ilə birlikdə hər il aprel ayının 1-dən gec olmayaraq, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim edilməlidir. Aydın olur ki, siyasi partiyalar cari ilin illik maliyyə hesabatlarını növbəti ilin aprel ayının 1-nə kimi hazırlamalıdırlar. Lakin siyasi partiyalar çalışmalıdırlar ki, maliyyə hesabatlarını mümkün qədər tez (aprel ayının 1-dən daha tez, yəni auditin keyfiyyətli aparılmasını təmin edən minimum vaxtı nəzərə almaqla) hazırlasınlar. Çünki siyasi partiyalar növbəti ilin aprel ayının 1-dək təqdim etməli olduqları cari ilin illik maliyyə hesabatlarının düzgünlüyünü əvvəlcə müstəqil auditor və ya auditor təşkilatı tərəfindən yoxlatmalıdırlar və auditor rəyi (hesabatı) almalıdırlar. Həmçinin, «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikası Qanununun 14.6-cı maddəsində göstərilir ki, siyasi partiyalar illik maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə kütləvi informasiya vasitələrində dərc etdirirlər.

Qaydaların (AR NK, Qərar № 263, 16.11.2012-ci il) 5.2-ci bəndinə görə, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası bu Qaydanın 5.1-ci bəndində nəzərdə tutulmuş müddətdə illik maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə təqdim etməyən siyasi partiyalar barədə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə məlumat verir. Göründüyü kimi, siyasi partiyalar məcburi qaydada müstəqil auditin obyektidir. Qeyd edək ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 247.3-cü «Məcburi auditdən yayınma» maddəsinə əsasən, «Qanunla nəzərdə tutulmuş hallarda həyata keçirilməli olan məcburi auditdən yayınmağa görə - vəzifəli şəxslər üç yüz manatdan altı yüz manatadək miqdarda, hüquqi şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək miqdarda cərimə edilir». Həmçinin, siyasi partiyalar mühasibat uçotunu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 30 avqust tarixli 238 nömrəli qərarı ilə təsdiq edilmiş «Siyasi partiyalarda sadələşdirilmiş mühasibat uçotunun aparılması Qaydaları»na uyğun aparmadığı halda, bu, mühasibat uçotu üzrə qanunvericiliyin pozulması halı kimi qiymətləndirilə bilər və Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 247-1-ci (Mühasibat uçotu üzrə qanunvericiliyin pozulması) maddəsi ilə siyasi partiyanın vəzifəli şəxsləri üç yüz manatdan dörd yüz manatadək miqdarda, partiyanın özü isə min beş yüz manatdan iki min manatadək miqdarda cərimə edilməklə inzibati məsuliyyətə cəlb oluna bilər.

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Sahibkar Vüqar Əzim oğlu Cəfərovun əsas biznes fəaliyyəti təsərrüfat mallarının alqı-satqısını, müxtəlif xidmətlərin göstərilməsini əhatə edirdi. Lakin o, fərqində deyildi ki, heç bir əməl, eləcə də işgüzar fəaliyyət qanuna zidd ola bilməz. Bunun fərqində olsaydı, rəhbəri olduğu bir neçə müəssisədə aparılmış kameral yoxlamalar zamanı vergi qanunvericiliyinin tələblərinin pozulması və vergidən yayınma halları aşkar edilməzdi. V.Cəfərovun rəhbərlik etdiyi «Dinamıka CE» Məhdud Məsuliyyətli Cəmiyyətində (MMC) aparılan kameral vergi yoxlaması zamanı 4502,51 manat, «Miras CX» MMC-də 3851,62 manat, «C.V. Star» MMC-də 5293,16 manat, «Fortuna AC» MMC-də isə 7081,89 manat məbləğində vergilərin dövlət büdcəsinə ödənilməkdən yayındırılması faktları müəyyən edildi. Beləliklə, onun bütün müəssisələr üzrə dövlət büdcəsindən yayındırdığı vergilərin ümumi məbləğinin 20729,19 manat təşkil etdiyi aşkarlandı.

Fakt üzrə toplanmış materiallar Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə təqdim olundu. CM-in 213.1-ci maddəsi üzrə bir neçə cinayət işi açılsa da, sonradan bunlar bir cinayət işi üzrə icraatda birləşdirildi. Cinayət işinin istintaqı zamanı müəyyən edildi ki, sahibkar V.Cəfərov rəhbəri olduğu MMC-lərdə maliyyə-təsərrüfat fəaliyyətinin uçotunu özü həyata keçirərək baş verən bütün qanunsuz əməliyyatlara şəxsən rəhbərlik edib. Müəssisələrdə qeyri-formal işə cəlb etdiyi şəxslərin işlərini də özü aparıb və beləliklə, vergi pozuntularına səbəb olan bütün cinayət əməllərinə cavabdehlik daşıyıb. Onun bu hərəkətləri Vergi Məcəlləsinin 16.1.1, 16.1.4, 16.1.7, 53.1, 72, 77.3, 78.1, 130.1, 159, 177.1.3, 180.1, 220 və 221-ci maddələrinin tələblərinin pozulması halları kimi nəzərə alındı və təqsirləndirilən şəxs qismində «başqa yerə getməmək haqqında iltizam» qətimkan tədbiri seçildi.

Şahid qismində dindirilən ticarət sövdələşmələrində iştirak etmiş şəxslərin ifadələri, alğı-satqı müqavilələri və bank köçürmələri, çeklər, mühasibat sənədləri, məhkəmə-mühasibat ekspertizasının rəyləri və digər maddi sübutlar əsasında MMC rəhbərinin törətdiyi cinayət əməlləri tam sübuta yetirildi.

Beləliklə, Yasamal Rayon Məhkəməsinin hökmünə əsasən, V.Cəfərov dövlət və yerli özünüidarəetmə orqanlarında vəzifə tutmamaq şərti ilə 1 il 6 ay müddətinə islah işlərinə cəlb olundu.

**ELBRUS**

# Sintetik uçotun aparılması ilə bağlı yeni Qayda

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Hörmətli oxucular, qəzetimizin əvvəlki sayında qeyd etdiyimiz kimi, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 18 yanvar 2016-cı il tarixli Q-02 nömrəli Qərarı ilə «Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq memorial order forması əsasında sintetik uçotun aparılması Qaydası» təsdiq edilmişdir. Bu dəfə müəssisə və təşkilatlarda tətbiq edilən memorial order formalarına, həmin formaların praktik misallar üzərində doldurulması üsullarına diqqət yetirəcəyik.

Memorial order forması mühasiblərə ənənəvi (köhnə) mühasibat uçotu qaydalarından da tanışdır. Yeni Qaydada tətbiq olunması nəzərdə tutulan memorial order forması da əvvəlki formadan elə də çox fərqlənmir. Əsas fərq ondadır ki, əvvəlki formada eyni adlı (təyinatlı) əməliyyat üzrə cəmlənmiş (yekun) məbləğlərə ikili yazılışlar (müxabirləşmələr) verildiyi halda, yeni formada hər bir ilkin uçot sənədi əsasında baş verən əməliyyat üzrə məbləğə ikili yazılışların (müxabirləşmələrin) verilməsi nəzərdə tutulub. Yəni yeni forma daha açıqlanmış informasiya tələb edir. Əvvəlki forma yalnız bir hissədən ibarət olduğu halda, yeni forma 3 hissəyə - «A», «B» və «C» hissələrinə bölünüb.

Qaydanın 3.5-ci bəndində memorial order formasının doldurulması qaydası açıqlanmışdır. Qaydaya görə, memorial orderlərdə mühasibat yazılışlarının (müxabirləşmələrin) verilməsi ilkin uçot sənədlərinə əsasən aşağıdakı kimi uçota alınır:

- memorial orderlərin «A» hissəsində mühasibat yazılışının (müxabirləşmənin) sıra nömrəsi, əməliyyatlar üzrə ilkin uçot sənədinin tarixi və nömrəsi, əməliyyatın adı, təsnifat maddəsinin nömrəsi (mövcud olduqda), əməliyyatın ikili yazılış üsulu ilə hesabların (subhesabların) debet və krediti üzrə mühasibat yazılışı (müxabirləşməsi) və məbləği göstərilir;
- memorial orderlərin «A» hissəsində uçota alınmış əməliyyatlar üzrə mühasibat yazılışları (müxabirləşmələr) qruplaşdırılmaqla «B» hissəsində əks etdirilir;
- memorial orderlərin «B» hissəsində əks etdirilmiş qruplaşdırılmış əməliyyatlar üzrə mühasibat yazılışlarına (müxabirləşmələrə) uyğun olaraq göstərilmiş hər hesabın (subhesabın) debeti və krediti üzrə dövriyyəsi «C» hissəsində qeyd olunur;
- memorial orderlərin «A», «B» və «C» hissələrində hesabların (subhesabların) dövriyyələri üzrə cəmi məbləğlər bir-birinə bərabər olmalıdır;
- aparılmış maliyyə-təsərrüfat əməliyyatlarının çoxluğundan asılı olaraq, istiqamətlərə görə müəyyən edilmiş memorial orderlər üzrə ay ərzində ardıcıllıqla bir neçə memorial order tərtib edilə bilər.

Qaydada 8 növ memorial order forması, o cümlədən №1 (kassa əməliyyatları üzrə), №2 (bank əməliyyatları üzrə), №3 (əməkhaqqı, pul təminatı və ona bərabər tutulan ödənişlər üzrə), №4 (təhtəlhesab şəxslərlə hesablaşmalar üzrə), №5 (ehtiyatlar üzrə), №6 (qeyri-maddi aktivlər, torpaq, tikili və avadanlıqlar, daşınmaz əmlaka investisiyalar, bioloji aktivlər, təbii sərvətlər, digər uzunmüddətli aktivlər və sair uzunmüddətli qeyri-maliyyə aktivləri üzrə), №7 (xidmətlər və işlər üzrə) və №8 (fəaliyyətin nəticələri və bununla bağlı digər əməliyyatlar üzrə) memorial order formalarının tərtib olunması nəzərdə tutulub. Buna baxmayaraq, təşkilatlar onlar üçün əhəmiyyət kəsb edən istiqamətlər üzrə əlavə memorial orderlər tərtib etmək, maliyyə-təsərrüfat əməliyyatlarının həcmindən asılı olaraq, bu Qaydanın 3.1-ci bəndində göstərilmiş memorial orderləri birləşdirmək hüququna malikdirlər. Yəni hətta 1 forma üzərində də bütün əməliyyatları uçota almaq olar.

Sual oluna bilər ki, sintetik uçotun aparılması məqsədilə bu formaları tətbiq etmək mütləqdirmi və ya başqa formada (başqa tətbiqlərlə) uçot aparılması qanun pozuntusu hesab oluna bilərmi? Qaydanın 1.5-ci bəndində göstərilir ki, sintetik uçotun memorial order formasını (əl ilə və ya avtomatlaşdırılmış rejimdə) tətbiq etməyən təşkilatlar mühasibat uçotunun sintetik uçotunu digər formalar (jurnal-order forması və ya digər avtomatlaşdırılmış) əsasında həyata keçirmək hüququna malikdirlər. İcra hakimiyyəti orqanları sintetik uçotun aparılması ilə əlaqədar digər formaların tətbiqini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirir. Yəni xüsusi mülkiyyət növünə malik müəssisə və təşkilatlar sintetik uçotun başqa formalarını tətbiq edə, həmçinin müxtəlif mühasibat proqramlarından istifadə etməklə uçotun qurulmasını həyata keçirə bilər.

Yeni Qayda mühasiblərin işinin asanlaşdırılması və təlimatlandırılması sahəsində mühüm əhəmiyyət kəsb edir.

# Sığorta bazarının 83,3 faizi könüllü formalaşıb

2016-cı ilin yanvar ayında Azərbaycanda toplanmış sığorta haqlarının 83,3 faizi və yaxud 63,6 milyon manatı könüllü sığorta növlərinin payına düşüb. Azərbaycan Sığortaçılar Assosiasiyasından (ASA) verilən məlumata görə, bu, 2015-ci ilin eyni dövrü ilə müqayisədə 24,9 faiz çoxdur. İcbarı sığorta növlərində yığım isə 12,7 milyon manat və yaxud bazarın 16,7 faizini təşkil edib. 2015-ci ilin eyni dövrünə nisbətən Azərbaycanın icbari sığorta bazarı 6,1 faiz böyüyüb.

Ay ərzində ümumi ödənişin 76 faizi və yaxud 10,2 milyon manatı könüllü sığorta növlərinin payına düşüb.

Könüllü sığortada ödəniş ötən ilin yanvar ayı ilə müqayisədə 34,5 faiz artıb. İcbari sığorta növləri üzrə ödəniş isə 3,2 milyon manat və yaxud ümumi bazarın 24 faizini təşkil edib. Bu da ötən ilin yanvar ayına nisbətən 15,6 faiz çoxdur.

Hesabat dövründə könüllü sığortadan toplanmış hər 100 manat sığorta haqqının 16 manatı ödəniş edilib. 2015-ci ilin yanvar ayında bu rəqəm 14,8 manat olmuşdu. İcbari sığortadan toplanmış hər 100 manat üzrə ödəniş isə 23,1 manatdan 25,2 manata qalxıb.

## vergi təqvimi

**MART**

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 | **6** |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | **13** |
| 14 | 15 | 16 | 17 | 18 | 19 | **20** |
| 21 | 22 | 23 | 24 | 25 | 26 | **27** |
| 28 | **29** | 30 | **31** | | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

29 mart - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1», «10.2» və «10.3».

31 mart - «1», «2» və «5».

**«1» - Gəlir vergisi:** Gəlir vergisi üzrə hesabat dövrü təqvim ilidir. Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb edilən gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər, ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan (tutulması mümkün olmayan) gəlirləri olan fiziki şəxslər, yaxud Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir, o cümlədən royaltidən gəlir əldə edən rezident fiziki şəxslər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanlarına bəyannamə verir və həmin vaxtadək illik gəlir üzrə son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) gəlir vergisini dövlət büdcəsinə ödəyirlər.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcəsi ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**(«1-2») - Gəlir vergisi (İdman mərc oyunları üzrə):** İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır. İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməyə borcludurlar.

**«2» - Mənfəət vergisi:** Mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Mənfəət vergisinin ödəyicisi hesab edilən rezident müəssisələr, habelə Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) vergini ödəyir və qeydiyyatda olduğu vergi orqanına bəyannamə təqdim edir. Bələdiyyə mülkiyyətində olan müəssisələr mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə), digər müəssisələr isə dövlət büdcəsinə ödəyirlər.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Müəssisənin əmlak vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Əmlak vergisinin ödəyicisi olan müəssisə əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edir və vergini həmin müddətədək son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) dövlət büdcəsinə ödəyir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə):** Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına təqdim etməyə borcludur.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

beynalxalq panoram

# Dövlət sektoruna aid müəssisələrə nəzarət gücləndirilir

Ukraynın Maliyyə Nazirliyi bu qərarı dövlət müəssisələri ilə bağlı fiskal risklərin daha yaxşı idarə olunması, eləcə də dövlət büdcəsinə daxilolmaların nəzarətdə saxlanılması məqsədilə qəbul edilib.



Nazirliyin təmsilçisinin bildirdiyinə görə, dövlət şirkətlərinin səmərəliliyinin aşağı olması dövlət büdcəsi üçün ciddi fiskal risklər yaradır, vergilərin və dividendlərin yüksək olması büdcə daxilolmalarının azalmasına gətirib çıxarıb, eləcə də dövlət şirkətlərinin borclarının hökumət tərəfindən dəstəklənməsi ilə bağlı potensial risklər yaradır. Bunu nəzərə alaraq, Maliyyə Nazirliyi dövlət müəssisələrinin fəaliyyəti ilə bağlı maliyyə risklərini sistemli şəkildə qiymətləndirməyə, bunun büdcəyə və ölkənin fiskal siyasətinə mənfi təsirini minimuma endirməyə hazırlaşır.

Qeyd edək ki, 2014-cü ildə dövlət şirkətləri 115 milyard qrivna (4,2 milyard dollar) itki yaranmasına səbəb olublar ki, bu da Ukraynada ÜDM-in 7,2 faizini təşkil edir. Dövlət müəssisələrinin aktivlərinin dəyəri isə 870 milyard qrivnadır (31,99 milyard dollar). Bu rəqəm ÜDM-in 22 faizinə bərabərdir.

# «Google» külli miqdarda vergini yayındırıb

«Reuters» agentliyinin məlumatına görə, «Google» şirkəti 2014-cü ildə ABŞ hüdudlarından kənarda qazandığı 10,7 milyard avro (12 milyard dollar) məbləğində gəliri vergilərdən gizlədib. Buna nail olmaq üçün ödənişlər Niderland və Bermud adaları üzərindən aparılıb.

«Google Netherlands» şirkətinin gəlirləri 2014-cü ildə şirkətin İrlandiya bölməsinin ödənişləri hesabına yaranıb və sonradan İrlandiyada qeydiyyata alınsa da, Bermud adalarında yerləşən «Google Ireland Holdings» filialına köçürülüb. Bermud adalarında isə şirkətdən mənfəət vergisi tutulmur.

Maliyyəçilər bu sxemi «ikiqat irland-holland sendviçi» adlandırırlar. «Reuters»in yazdığına görə, «irland-holland sendviçi» «Google» üçün imkan yaradıb ki, həm Amerikada, həm də Avropada mənfəət vergisindən yayınsın. «Google Netherlands» - şirkətin Niderland bölməsində bir işçi belə çalışmır, lakin bu bölmə Niderland xəzinəsinə 2,8 milyon dollar vəsait ödəyib.

«Google» şirkətinin artıq on ildir ki, istifadə etdiyi bu sxem ona ABŞ hüdudlarından kənarda 6%-lik effektiv dərəcə ilə vergi ödəməyə imkan verir ki, bu da orta səviyyədən təxminən dörd dəfə azdır.

Avropa İttifaqı son illərdə transmilli şirkətlərin vergidən yayınmalarına qarşı mübarizəni gücləndirib. Xatırladaq ki, bu ilin yanvar ayında «Google» şirkəti ilə Böyük Britaniya hökuməti arasında əldə edilmiş razılığa əsasən, Google 10 il ərzində ödəmədiyi vergiləri bu ölkənin xəzinəsinə köçürəcək. KİV-in yaydığı məlumata görə, şirkətin Britaniya xəzinəsinə ödəyəcəyi ümumi məbləğ 200 milyon funt sterlinq təşkil etsə də, bu ölkədən 2005-2011-ci illərdə əldə etdiyi gəlirin həcmi 24 milyard dollar olub.

İtaliya hökuməti də hazırda «Google» şirkətinin bu ölkəyə 227 milyon avro kompensasiya ödəməli olduğu iddiasındadır. Buna baxmayaraq hələlik «Google» ilə hökumət arasında heç bir razılaşma yoxdur.

Artıq keçən ildən Rusiyanın maliyyə dairələrində də transmilli internet şirkətləri ilə vergi münasibətlərinin tənzimlənməsi ətrafında müzakirələr aparılmaqdadır.




# Böyük Britaniyada əməkhaqqı fonduna vergi 11%-ə çatdırılıb

Əməkhaqqı fonduna vergi Böyük Britaniyada artırılsa da, digər Avropa ölkələrində azalmışdır. «UHY Hacker Young» audit şirkətinin mühasibat qrupunun rəyinə görə, bu verginin artırılması yaxın gələcəkdə əmək bazarına və gəlirlərin artımına mənfi təsir göstərə bilər.

Hazırda Böyük Britaniyada müəssisələr əməkhaqqı fonduna vergi şəklində ildə orta hesabla 5460 funt sterlinq (1 funt sterlinq = 2,22 manat) ödəyirlər, hər müəssisə üçün orta əməkhaqqı fondu isə 47.680 funt sterlinq təşkil edir. Dünya üzrə orta vergi ödənişi 8680 funt sterlinqdən 8460 funt sterlinqə enmişdir və bu, əməkhaqqının 17,7%-ni təşkil edir. Avropada isə verginin orta səviyyəsi 9700 funt sterlinqdən 9130 funt sterlinqə, başqa sözlə, 19,8%-dən 19,2%-ə enmişdir.

Bu sahədə ən yüksək artım Çində baş vermişdir: 2012-ci ildə burada əməkhaqqına vergi 12,6%-dən 18%-ə qaldırılmışdır. Hazırda Çində işəgötürən ildə 8550 funt sterlinq vergi ödəyir.

# Rusiyada xarici internet şirkətləri vergi ödəyəcəklər

*Rusiya Dövlət Duması ölkə istehlakçılarına internet üzərindən öz kontentinə pullu giriş verən xarici şirkətlərə xüsusi vergitutma qaydası tətbiq etməyi nəzərdə tutan qanun layihəsini birinci oxunuşda qəbul etmişdir. Söhbət məlumat bazası, proqram təminatı, oyunlar, elektron kitablar, video məhsulları və s. üçün pul ödənilən şirkətlərdən gedir.*



Bundan əlavə, yeni qanun layihəsində xarici şirkətlərin göstərdikləri bu qəbildən olan elektron xidmətlərin də əlavə dəyər vergisinə cəlb olunması qaydalarının müəyyənləşdirilməsi təklif edilmişdir. Qanun qəbul olunandan sonra xarici müəssisələr ƏDV ödəyəcəklər və hər rüb həmin rübdən sonrakı ayın 25-dən gec olmayaraq vergi orqanlarına müvafiq bəyannamə təqdim edəcəklər.

Bu qanun layihəsinin əhatə etdiyi müddəalarla əlaqədar olaraq, Rusiya Federasiyasının Vergi Məcəlləsinə də elektron xidmətlər göstərən xarici şirkətlərin vergi orqanında uçota alınması barədə qaydalar daxil etmək, eləcə də həmin şirkətlərə münasibətdə kameral vergi yoxlaması aparılmasının xüsusiyyətlərini müəyyənləşdirmək təklif olunmuşdur.

Qanun layihəsində Vergi Məcəlləsinin elektron-hesablama maşınları və məlumat bazaları üçün proqramlardan istifadə üzrə əməliyyatların ƏDV-dən azad olunmasını nəzərdə tutan 149-cu maddəsinə müvafiq düzəlişin edilməsi də təklif olunmuşdur.

Bunlarla yanaşı, yeni qanun layihəsinə əsasən, öz kontentinin satışını internet vasitəsilə həyata keçirən Rusiya müəssisələri üçün güzəşt şərtlərinin tətbiqi nəzərdə tutulmuşdur. Layihədə bu sahə ilə bağlı gəlir vergisinə xüsusi vergi imtiyazlarının tətbiqi təklif olunmuşdur. Kontentlərin satışından əldə edilən gəlirlərə birbaşa aid olan xərclər həmin gəlirin faktiki xərclərin məbləğindən artıq hissəsinin vergituma məqsədlərinə yönəldilməsinə imkan yaradacaq.

Xatırladaq ki, Dumanın qəbul etdiyi qanun layihəsi ilə əlaqədar Prezident Vladimir Putin hökumətə qanunvericilikdə Rusiya Federasiyası şirkətlərinin fəaliyyət göstərməsinə bərabər şərtlər yaradılması istiqamətində dəyişikliklər hazırlamaq barədə də tapşırıq vermişdir.

## Xəbər lenti

**İsveçrə** və **Cənubi Koreya** hökumətlərinin imzaladığı birgə bəyannaməyə əsasən, 2018-ci ildən bu iki ölkə arasında vergilərə dair informasiyalar avtomatik mübadilə olunacaq.

**Avropa İttifaqı**na üzv olan 18 dövlət sərhəd ərazilərdə ƏDV ödənişi ilə bağlı məsələlərin tənzimlənməsi ilə bağlı pilot layihədə iştirak edirlər. Artıq bu layihəyə İtaliya və İrlandiya da qoşulub.

**Avropa Şurası** 2016-cı il mayın 1-dən üç offşor zonanın - Men, Cersi və Hernsi adalarının vahid Avropa ödəniş sisteminə qoşulacağını təsdiq edib. Bu, adı çəkilən üç yurisdiksiyanın banklarına daha etibarlı və sürətli transsərhəd köçürmələrinə imkan yaradacaq.

**Mərkəzi Amerika** ölkələri (Salvador, Qvatemala, Honduras, Nikaraqua, Panama və Kosta-Rika) ilə Cənubi Koreya azad ticarət zonasının yaradılması ilə bağlı danışıqların növbəti mərhələsinə başlayıblar.

**Argentina** Prezidenti Maurisio Makri fiziki şəxslərin gəlirindən tutulmayan vergi həddinin dəqiqləşdirildiyini elan edib. Bundan sonra 30.000 Argentina pesosundan (1997 dollar) az aylıq əməkhaqqı alanlar gəlir vergisi ödəməyəcəklər. Bu qanun geriyə tətbiq edilərək 2016-cı il yanvarın 1-dən qüvvədə olacaq. Xatırladaq ki, indiyə qədər vergi tutulmayan hədd bu məbləğin yarısı qədər - 15.000 peso idi.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Yaxın Şərqdə çay; 2.Sumatra - İndoneziyanın qərbində ada; 3.Dünyanın ən məşhur musiqiçilərindən biri. İngilis pop-rok müğənnisi, bəstəkar, pianoçunun adı; 4.Ağ yundan və kətandan hazırlanmış qədim Roma geyimi; 5.Hüquq termini. Yük daşımaları ilə bağlı müqavilə və ya qanunla tənzimlənən ödəmə; 6.Günəş sistemində sırasına görə 6-cı, böyüklüyünə görə ikinci planet; 9.Dünya futbol tarixində ən məşhur futbolçulardan biri; 13.Kimyəvi element; 15.Azərbaycanda yetişən meyvə, plovun bəzəyi hesab edilir; 16.Sakit okeanda atoll; 17.Azərbaycanın Xocavənd rayonu ərazisində Mustye mədəniyyətinə aid möhtəşəm mağara-düşərgə; 18.Kompressor, mühərrik və turbinləri hərəkətə gətirən hərəkətsiz hissə; 20.İlin fəsli; 21.Karotin, C vitamini, şəkər, üzvi turşular və pektin maddələrlə zəngin olan meyvə. **Soldan sağa:** 1.İMüxtəlif təşkilat və qurumlarda yoxlama, nəzarət əməliyyatlarını həyata keçirən şəxs; 5.Əşyanın ön görünüşü; 7.Köçürmə vekselində yazılan məbləği alan şəxs; 8.Aylardan biri; 10.Qadın adı; 11.Qədim Romada maliyyə və məhkəmə işlərinə nəzarət edən vəzifəli şəxs; 12.Müasir döyüş sənəti, mübarizə idmanı və özünü silahsız qoruma sistemi; 14.Yaponiyada qonaqlarını rəqs və mahnı ilə əyləndirən, müxtəlif mövzularda söhbət yoldaşı olan qadınlar; 19.Dərinin xoşxassəli törəmələrindən biri; 21.Rusiya Federasiyasının Sverdlovsk vilayətində şəhər; 22.Kredit kartlarının, IMEI və IN nömrələrinin doğruluğunu yoxlamaq üçün Amerika alimi tərəfindən yaradılmış alqoritm; 23.Uşaq pijamaları üçün nəzərdə tutulan yumşaq parça növü; 24.Respublikamızda çay; 25.Buddistlərin Yava adasında yerləşən ehram kompleksi.



Buddistlərin Yava adasında yerləşən ehram kompleksi

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Şeytan; 2.Dinamit; 3.İdrak; 4.Sparta; 5.Çarıq; 6.Dekart *(Rene)*; 9.Miki; 13.Yoqa; 15.Atlanta; 16.Amitoz; 17.İnfant; 18.Paştet; 20.Çinar; 21.Harun. **Soldan sağa:** 1.Şadlinski *(Abbasqulu bəy)*; 5.Çad; 7.Yanardağ; 8.Ürək; 10.Aymak; 11.Triqqer; 12.Ştayn; 14.Milax; 19.Miçiqan; 21.Halva; 22.Tunc; 23.Patronat; 24.Zar; 25.İntendan.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 9000

## idman

# Velosiped idmanı üzrə yeni mövsümün ilk qalibləri müəyyənləşib



Azərbaycan Velosiped İdmanı Federasiyası və Bakı Olimpiya Stadionunun birgə təşkilatçılığı ilə 2016-cı il mövsüminə stadion ətrafındakı yollarda təşkil edilən yarışla start verilib. İki gün davam edən mövsümün açılış yarışında federasiyanın nəzdində fəaliyyət göstərən klub və cəmiyyətlərin müxtəlif yaş qrupları üzrə 100-dən artıq idmançısı iştirak edib.

On beş yaşadək idmançıların 20 kilometrlik qrup ötüşməsində 8 saylı İdman Olimpiya Məktəbinin təmsilçisi Emil Əliyev finişi birinci keçib. Onun komanda yoldaşı Fədail Mahmudov isə ikinci nəticə göstərib. İlk üçlüyü İxtisaslaşdırılmış Uşaq-Gənclər Məktəbinin üzvü Nikita Sıtov tamamlayıb.

U-17, gənclər, U-23 və elit kateqoriyasında mübarizə aparan velosipedçilər isə 60 kilometr məsafə qət ediblər. İxtisaslaşdırılmış Uşaq-Gənclər Məktəbinin nümayəndəsi Yunus Vəzirov bütün rəqiblərini qabaqlamaqla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Adı çəkilən məktəbin digər nümayəndəsi Bakir Dadaşov üçüncü olub. İkinci yeri isə 8 saylı İdman Olimpiya Məktəbindən Maksim Naperstkov tutub.

# Dünya Güləş Birliyi yeni qaydalar tətbiq edir

Güləş idman növünün modernləşdirilməsi prosesinin davamı olaraq, Dünya Güləş Birliyi idmançıların yarış geyimlərində yeni qaydalar tətbiq edəcəyini açıqlayıb. Artıq güləşçilər əvvəlki kimi, göy və qırmızı rəngli standart geyimlərdən deyil, hər bir ölkə federasiyasının özünəməxsus hazırladığı, milli rənglərdən istifadə edilmiş güləş geyimlərindən istifadə edə biləcəklər.

Yeni qaydalara əsasən, güləş geyiminin ayaq və kürək hissəsində göy və ya qırmızı zolaq mütləqdir. Güləş geyiminin ön tərəfində - sinədə ölkənin bayrağı və federasiyanın loqosu, arxa tərəfində - kürək hissəsində isə ölkə adının abreviaturası və idmançının soyadı əks olunmalıdır.

Geyimlə bağlı edilmiş dəyişikliklər aprelin 22-24-də Monqolustanın Ulan Bator şəhərində keçiriləcək birinci dünya təsnifat turnirində və mayın 6-8-də İstanbulda təşkil olunacaq sonuncu dünya təsnifat turnirində ilk dəfə tətbiq ediləcək.

# Qran-pri yarışlarında uğurlu nəticə

Fevralın 23-dən 29-dək Hollandiyanın Haaqa şəhərində keçirilən paralimpiyaçılar arasında üzgüçülük üzrə Qran-pri yarışları başa çatıb. Azərbaycan idmançıları turnirdə 5-i qızıl, 4-ü gümüş olmaqla ümumilikdə 9 medal qazanıblar.

Milli Paralimpiya Komitəsindən AZƏRTAC-a bildiriblər ki, 100 metr sərbəst üsulla üzmə (krol) növündə Roman Saley gümüş, Dmitriy Saley qızıl, 400 metr məsafəyə üzmədə isə Roman Saley qızıl medal qazanıb.

Beləliklə, yarışlarda idmançılarımız 12 növdən 9-da fərqləniblər.

# Azərbaycan qrossmeysteri hamıdan güclü olub

Çinin Xuayan şəhərində keçirilən Dünya İntellektual Oyunlarında rapid yarışları başa çatıb. Yarışların ikinci günündə Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov kubalı Lenyer Dominqes ilə heçheçə oynayıb, çinli Lijen Dinqə və polyak Radoslav Voytaşekə qalib gəlib, tay-breykdə isə Ukrayna nümayəndəsi Ruslan Ponomaryovdan daha güclü olduğunu sübut edib.

Beləliklə, Ş.Məmmədyarov bu yarışlarda 5 xal toplayaraq birinci yeri tutub. İkinci yerə Ponomaryov, üçüncü yerə Lenyer Dominqes, dördüncü yerə isə çinli Van Hao çıxıb. Azərbaycanın daha bir nümayəndəsi - Rauf Məmmədov isə 3,5 xalla turniri səkkizinci yerdə başa vurub.

Xatırladaq ki, 43 ölkədən 143 oyunçunun iştirak etdiyi Dünya İntellektual Oyunlarında şahmat, qo, Çin şahmatı, bric və dama üzrə ən güclü oyunçular müəyyən edilir.

# FİFA-nın 9-cu prezidenti: Canni İnfrantino



Fevralın 26-da İsveçrənin Sürix şəhərində FİFA-nın növbədənkənar konqresində qurumun yeni prezidenti vəzifəsinə keçirilən seçkilərdə isveçrəli Canni İnfrantino qalib gəlib.

Səsvermədə FİFA-ya üzv olan 207 milli futbol federasiyasının (Küveyt və İndoneziya istisna olmaqla) nümayəndələri iştirak ediblər. Seçkilərin ilk turunda namizədlərdən heç biri tələb olunan 2/3 səs çoxluğunu (138 səs) əldə edə bilməyib. İkinci turda isə mütləq səs çoxluğunu (115) qazanan Canni İnfantino FİFA-nın yeni prezidenti seçilib. O, bu vəzifəni 2019-cu ilədək icra edəcək.

İtaliya əsilli İsveçrə vətəndaşı olan C.İnfantino 2000-ci ildən UEFA-da çalışır. Qırx beş yaşlı mütəxəssis 2009-cu ildən bu qurumun baş katibi vəzifəsində işləyib.

## mozaika

texnologiya

# Məlumatları illərlə saxlamaq mümkün olacaq

Böyük Britaniyanın Sauthempton Universitetinin Optik Tədqiqat Mərkəzinin tədqiqatçıları məlumatları beş ölçüdə yazmağa və milyard illərlə saxlamağa imkan verən texnologiya hazırlayıblar. Məlumatları 13,8 milyard ilədək saxlaya bilən daşıyıcı 360 terabayt yaddaşa malikdir və min dərəcə temperaturda belə, zədələnmir.

Tədqiqatçılar oxşar texnologiyanı ilk dəfə 2013-cü ildə təqdim ediblər. Lakin o zaman onlar diskə yalnız 300 kilobayt ölçülü fayl yerləşdirə biliblər. Mütəxəssislər üç il sonra texnikanı əhəmiyyətli dərəcədə təkmilləşdirərək, diskə Ümumdünya İnsan Hüquqları Bəyannaməsini, Nyutonun «Optika» əsərini və Bibliyanı yazmağa müvəffəq olublar.




ekologiya

# İqlim dəyişmələrinin təsirini əks etdirən xəritə

Norveçin Bergen Universitetinin alimləri tərəfindən yaradılan yeni xəritədə iqlim dəyişmələrinin Yer kürəsinə təsiri əks olunub. Bunun üçün əsas götürülmüş bitkilərin həssaslıq indeksi (Vegetation Sensitivity Index, VSI) bitkilər aləminin iqlim dəyişmələrinə reaksiyasını göstərir.

Alimlər 2000-2014-cü illər üçün peyk məlumatlarından istifadə edərək havanın temperaturu, sudan istifadə imkanları, buludların əmələ gəlməsi və sair göstəricilərin dinamikasını təhlil ediblər.

Böyük Səhra və ya Antarktida kimi ucsuz-bucaqsız barsız ərazilərdən başqa, ayrılıqda götürülən hər bir 5 kvadratkilometr quru sahəsi üçün hesablamalar aparılıb.

Alimlərin ərsəyə gətirdikləri xəritədə iqlim dəyişmələrinin Yer kürəsinin bitki örtüyünə təsiri əyani göstərilib. Bu təsirin minimum olduğu sahələr, məsələn, Şimali Amerikanın cənub hissəsi, Qərbi Avstraliya və Cənubi Amerikanın cənub-şərq hissəsi həmin xəritədə yaşıl rənglə qeyd olunub. Cənubi Amerika qitəsinin şimal-qərb hissəsi isə əksinə, tünd qırmızı rənglə qeyd olunub ki, bu da iqlim dəyişmələrinin ekoloji sistemə ciddi təsir göstərdiyinə dəlalət edir. Skandinaviya yarımadasının şimal hissəsi, Okeaniya adaları, Çin, Yaponiyanın bir hissəsi və planetimizin digər yerləri də qırmızı rənglə işarələnib.




tapıntı

# Xərçəngin qənimi

ABŞ-ın Kaliforniya Universitetinin onkoloqları orqanizmdəki xərçəng hüceyrələrinin 98 faizini 16 saat ərzində məhv edən bitki tapıblar. Maraqlı budur ki, xərçəngə qarşı ən səmərəli mübarizə vasitəsi hamımızın yaxşı tanıdığı «birillik yovşan» və ya «Artemisia Annua» deyilən adi alaq otudur.

Mütəxəssislər bildirirlər ki, 16 saat ərzində xərçəng hüceyrələrinin 98 faizini məhv etməyə qadir olan yovşan təkbaşına bədxassəli şişlərin yalnız üçdə bir hissəsini məhv edir, amma dəmir preparatları ilə birlikdə orqanizmi tamamilə bu xəstəlikdən təmizləyir. Ekspertlər yovşanın şəfalı xassələrini ağciyər xərçənginə tutulan könüllülər üzərində sınaqdan keçiriblər. Nəticə onları heyrətləndirib: eksperimentin bütün iştirakçıları sağlamlıqlarını mürəkkəb terapiyadan keçmədən bərpa ediblər.

Alimlər vurğulayırlar ki, «Artemisia Annua» insanlar üçün tamamilə təhlükəsizdir. Bu alaq otu seçim üsulu ilə işləyir, sağlam orqanlara və toxumalara toxunmadan bilavasitə bədxassəli şişləri məhv edir. Buna görə də yovşanı xərçəng şişinin inkişafının istənilən mərhələsində heç bir fəsad riski olmadan qəbul etmək olar.



Alimlərin yeni kəşfindən sonra dünyanın ən iri əczaçılıq şirkətlərindən biri yovşanın əsas komponenti olan artemizininin istehsalını qat-qat artırmağı vəd edib. Bundan sonra əczaçılar hər il təqribən xərçəngə qarşı 60 ton səmərəli dərman istehsal edəcəklər. Bu da onkoloji xəstəliklərin müalicəsində böyük sıçrayış etməyə və milyonlarla insanı ölümdən xilas etməyə imkan verəcək.

tədqiqat

# Kalium və sellüloz mənbəyi

Uşaq üçün qida rasionu tərtib edəndə kartofu unutmaq lazım deyil. ABŞ mütəxəssislərinin sonuncu tədqiqatı sübut edib ki, kartofun tərkibindəki kaliumu orqanizm daha yaxşı mənimsəyir. Yemək seçiminin ömrün ilk illərində formalaşdığını nəzərə alan mütəxəssislər vaxtaşırı uşaqlara kartoflu yeməklər hazırlamağı tövsiyə edirlər.



Beylor Tibb Kollecinin əməkdaşları müəyyən ediblər ki, kartof həzm sisteminin normal işləməsinə lazım olan gündəlik sellüloz normasının 8 faizini təmin edir. Orta statistik məktəbli lazımlı sellüloz porsiyasının cəmi 55 faizini və tələb olunan kaliumun 67 faizini qəbul edir. Uşaqlar tərəvəz xoşlamırlar, daha çox «sürətli» karbohidrat mənbələrinə, o cümlədən şokolada və şirniyyata üstünlük verirlər. Ağ kartofu isə heç sevmirlər. Ekspertlər hesab edirlər ki, bu məhsula məhəbbəti hələ uşaq yaşlarında aşılamaq, eyni zamanda digər faydalı məhsulları unutmamaq lazımdır.

**Müdriklər deyib ki...**

*«Vəfasız dost kölgə kimidir: işıqlı gündə səni izləyər, buludlu gündə gözdən itər».*

*Mücirəddin Beyləqani (1130-1194)*

